# Musiqi

## Metodik vəsait




7

LAYİHƏ

OQTAY RƏCƏBOV, NAZİM KAZIMOV,
AYTƏN BABAYEVA

# Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün

## MUSİQİ fənni üzrə dərsliyin METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **tahsil_az@yahoo.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

Təhsil

LAYİHƏ

# MÜNDƏRİCAT


Giriş ....................................................3
İzahat vərəqi ....................................................4
VII sinif "Musiqi" fənni üzrə illik planlaşdırma....................................................10
Məzmun standartlarının və inteqrasiyanın tətbiqi....................................................13


## MUSİQİ OBRAZI


Musiqi obrazı və xarakter ....................................................14
Musiqi obrazlarında xarakter dəyişikliyi ....................................................16
Dram tamaşaları və musiqi obrazı ....................................................18
Operetta və musiqi obrazı ....................................................20
Kiçik Summativ Qiymətləndirmə ....................................................21
Azərbaycan mahnılarında məkan obrazı....................................................22
Musiqi obrazları Azərbaycan və rus bəstəkarlarının yaradıcılığında ....................................................24
Azərbaycan xalq rəqslərində musiqi obrazları ....................................................26
Kiçik Summativ Qiymətləndirmə ....................................................27
Xalq və bəstəkar mahnılarında layla xarakteri ....................................................28
Proqramlı musiqi və musiqi obrazı ....................................................30
Miniatür və musiqi obrazı....................................................32
Keçilmiş mövzuların təkrarı ....................................................33
Kiçik Summativ Qiymətləndirmə ....................................................


## MUSİQİ DRAMATURGİYASI


Qara Qarayevin "Yeddi gözəl" baletinin dramaturgiyası ....................................................34
Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin dramaturgiyası....................................................36
Oratoriya və dramaturgiya ....................................................38
Əşrəf Abbasovun "Qaraca qız" baletinin dramaturgiyası ....................................................40
Müslüm Maqomayevin "Şah İsmayıl" operasının dramaturgiyası ....................................................42
Kiçik Summativ Qiymətləndirmə ....................................................43
Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletinin dramaturgiyası ....................................................44
Musa Mirzəyevin "Romantik vals-poema"sı
və İohann Ştrausun "Vyana meşəsinin nağılları" əsərlərinin dramaturgiyası ....................................................46
Vətən mövzusu və musiqi....................................................48
Fikrət Əmirovun "Sevil" operasının dramaturgiyası....................................................50
Fikrət Əmirovun "Sevil" operasından "Dilbərin nəğməsi" ilə
Jorj Bizenin "Karmen" operasında Karmen və Xabanera arasında əlaqələr....................................................52
Kiçik Summativ Qiymətləndirmə ....................................................53
Böyük Vətən müharibəsi obrazı və musiqi....................................................54
Cövdət Hacıyevin "Sülh uğrunda" simfonik poemasının dramaturgiyası....................................................56
Migel de Servantesin və Qara Qarayevin
eyniadlı "Don Kixot" əsərlərinin dramaturgiyası ....................................................58
Musiqidə bayram mövzusu ....................................................60
Kiçik Summativ Qiymətləndirmə ....................................................61
Musiqi repertuarı ....................................................63


LAYİHƏ

# GİRİŞ

**Musiqi kurikulumu və onun xarakterik cəhətləri.** Musiqi kurikulumu ümumtəhsil məktəblərində musiqi təlimi və tərbiyəsinin, musiqi mədəniyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədlərinin reallaşdırılmasına xidmət etməklə musiqi fənni üzrə ümumtəlim nəticələrinə nail olmaq istiqamətində fəaliyyətləri əhatə edən konseptual xarakterli sənəddir. Bu kurikulumda şagirdlərin cəmiyyətdə incəsənətin rolunu dərk etmələri, onların bədii zövqünün, musiqi üzrə bacarıq və vərdişlərinin inkişafı, fəal dinləyici kimi yetişmələri, mənəvi aləmlərinin zənginləşdirilməsi nəzərdə tutulur.

Musiqi kurikulumu dərsliklərin, fənnin tədrisi metodikasının hazırlanması, tədris materiallarının planlaşdırılması və müəllim hazırlığının təkmilləşdirilməsi üçün hazırlanacaq təlimatların, metodik vəsaitlərin əsasını təşkil edir.

Tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük, sistemlilik və inteqrativlik kimi prinsiplərə əsaslanan bu kurikulum şagirdlərin təlim nailiyyətlərini müntəzəm olaraq qiymətləndirməyi, onların inkişafının izlənilməsini nəzərdə tutur, şagirdlərə musiqi təlimi üzrə gündəlik həyatda vacib olan bacarıqların mənimsənilməsinin zəruriliyini şərtləndirir.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Milli musiqi və mədəniyyət tariximizin, incəsənət sahəsində qədim köklərə malik ənənələrimizin öyrənilməsi, böyüməkdə olan nəslin estetik, hissi-emosional tərbiyəsinin gücləndirilməsi, ümumi intellektual səviyyənin inkişafı, istedadlı şagirdlərin aşkara çıxarılması kimi əsas tələblərin yerinə yetirilməsində musiqi təlimi mühüm əhəmiyyət kəsb edir.

Mənəvi-estetik təsirinə, didaktik mahiyyətinə, vətənpərvərlik, humanizm, dostluq ruhunda tərbiyəedici təsir qüvvəsinə görə müstəsna əhəmiyyət kəsb edən bu fənn çox böyük imkanlara malikdir. Musiqi təlimi prosesində istinad edilən müxtəlif janrlara aid nümunələr şagird şəxsiyyətinin idrakı, psixomotor cəhətdən inkişafına, mənəvi-emosional cəhətdən zənginləşməsinə zəmin yaradır.

Ümumtəhsil məktəblərində "Musiqi" fənninin əsas məqsədi milli və bəşəri sənət nümunələri əsasında şagirdlərdə musiqi mədəniyyətinin formalaşdırılması və inkişafını təmin etməkdən ibarətdir.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədində göstərilmişdir ki, ümumtəhsil məktəblərində musiqi fənninin tədrisi prosesində:

• İbtidai təhsil pilləsində şagirdlərin musiqi növlərinin forma, janr, üslub və ifadə vasitələri, xalqımızın musiqi tarixi haqqında ümumi məlumatlarla tanış olmaları, yaradıcı-estetik fəaliyyətlə bağlı (mahnı oxumaq, rəqs etmək və s.) ən sadə ilkin bacarıqlara yiyələnmələri təmin edilir, onlarda bədii zövq, estetik mədəniyyət, milli musiqi, habelə ümumbəşəri musiqi nümunələrinə maraq, yaradıcılığa meyil, mücərrəd və obrazlı təfəkkür, əməksevərlik və digər iradi keyfiyyətləri formalaşdırılır.

• Əsas təhsil pilləsində ibtidai təhsil pilləsi üzrə təyin olunmuş fəaliyyətlər inkişaf etdirilməklə milli musiqi tariximizin ən zəruri məqamları, görkəmli şəxsiyyətləri haqqında məlumatlarla, aşıq musiqisi, muğamlar, dünya musiqi mədəniyyətinin geniş yayılmış nümunələri ilə tanışlıq, xorla ifa və vokal vərdişlərinin mənimsənilməsi, musiqinin qavrama mədəniyyətinin formalaşdırılması, şagirdlərin səs imkanları, arzu və istəkləri nəzərə alınmaqla ifaçılığa cəlb olunmaları təmin edilir.



LAYİHƏ

## İZAHAT VƏRƏQİ

"Musiqi" fənni üzrə dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

**Müəllim üçün metodik vəsait.** Bu vəsaitdə V və VI siniflərdə olduğu kimi, hər bir dərsin mövzusu, məzmun standartları, inteqrasiya, iş üsulları, gündəlik planlaşdırma nümunələri, qiymətləndirmə cədvəli, eyni zamanda musiqi repertuarı öz əksini tapmışdır.

Dərsə hazırlaşan müəllim məktəblilərin biliyini, qavrama qabiliyyətini və yaş xüsusiyyətlərini nəzərə almalı, yeni mövzunun yaxşı mənimsənilməsi üçün müxtəlif əyani, texniki və köməkçi vəsaitlərdən istifadə etməyi bacarmalıdır.

Şagirdlərin biliyinin qiymətləndirilməsi "5" ballıq qiymət sisteminə əsaslanır. Bu zaman aşağıda göstərilən meyarları nəzərə almaq məsləhətdir:

1. Musiqinin ifası (mahnının ifası, sadə musiqi alətlərində çalma);
2. Sual-cavabla mövzunun əhatə olunması;
3. Yeni ideya və təkliflərin irəli sürülməsi;
4. Əməkdaşlıq, qrup işində fəallıq və təşəbbüs göstərilməsi;
5. Problemin həllinə yaradıcı yanaşma, ümumiləşdirmə bacarığı, təqdimetmə və s.

Hər bir məzmun vahidinin sonunda məktəblinin əldə etdiyi nailiyyətləri yoxlamaq üçün yazılı, şifahi və musiqili testlərdən istifadə etmək məsləhət görülür.

Dərslikdə mövzuların məzmununa uyğun məlumatlar, illüstrasiyalar, bəstəkarların portretləri, mahnıların mətni, tapşırıqlar, suallar öz əksini tapmışdır.

Dərslik hazırlanarkən aşağıdakı pedaqoji prinsiplərə riayət olunmuşdur: mövzuların və musiqi materialının şagirdlərin yaş xüsusiyyətlərinə uyğun gəlməsi, dərslərin məzmununun gender, etnik irq və din məsələlərinə həssaslıqla yanaşmaqla seçilməsi, biliklərin dəqiq olaraq elmə əsaslanması, dərs mövzularının sadə, lakin maraqlı, cəlbedici olması, dərslikdəki şəkil və illüstrasiyaların mövzulara uyğun olması, bütün dərslik boyu vahid dizayn üslubunun və dərslərin məzmununa uyğunluğunun gözlənilməsi, mövzu baxımından digər fənlərlə əlaqələrin yaradılması, nəhayət, qəbul olunmuş "Musiqi" üzrə məzmun standartlarına əsaslanması.

Hər bir dərsdə VI sinifdə verilmiş (yaxud müəllimin şəxsi təşəbbüsü ilə məsləhət görülən) qiymətləndirmə cədvəlindən istifadə etmək olar:

### QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

| № | Meyarlar/ Qrup | I (zəif) | II (orta) | III (yaxşı) | IV (əla) |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini ifadə edir | | | | |
| 2. | Musiqi nümunələrini müqayisə edir | | | | |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır | | | | |
| 4. | Təqdimat edir (şifahi və yazılı) | | | | |
| 5. | Mahnı melodiyalarını təmiz oxuyur | | | | |
| 6. | Musiqiyə uyğun rəqs edir, ritm tutur | | | | |
| 7. | Mahnının xanə ölçülərini, tonallığını müəyyən edir | | | | |



LAYİHƏ

**Dərsin təchizi.** "Musiqi" fənni üzrə dərs prosesində şagirdlərin mənimsədikləri bilik, bacarıq və vərdişlərdən, dərslikdən, musiqi aləti kimi fortepianodan, not materialından, portret və şəkillərdən, sxem və plakatlardan, texniki vasitə kimi kompüterdən, maqnitofon və diskdən, DVD-pleyerdən və digər əlavə köməkçi vasitələrdən istifadə olunmalıdır.

## Təlimin təşkilinin forma və üsulları barədə tövsiyələr

Humanist və demokratik prinsiplər üzərində qurulan müasir təhsil sistemi təlimin artıq pedaqogika elminə məlum olan ənənəvi formalarının təkmilləşdirilməsini, eyni zamanda təlim prosesində yaradıcılıqla tətbiq oluna bilən qeyri-standart formalardan istifadəni tələb edir.

Hazırkı musiqi təliminin məzmunu, onu təşkil edən standartlar elə qurulmuşdur ki, bunların reallaşdırılması yeni formalar tətbiq edilmədən mümkün deyil. Ona görə də hər bir standarta fərdi yanaşmaqla konfrans, seminar, müzakirə-diskussiya, ekskursiya xarakterli dərs formalarından istifadə olunması məqsədəuyğun sayılır.

**Konfrans dərs forması.** Bu dərs forması təlim prosesində hər hansı bir geniş mövzu mənimsədildikdən sonra tətbiq edilə bilər. Belə dərsi sinifdə, yaxud məktəbin zalında təşkil etmək mümkündür.

Bunun üçün sinif 2 yerə bölünür. 45 dəqiqənin 20 dəqiqəsi bir qrupa, digər 20 dəqiqəsi isə o biri qrupa ayrılır. Yerdə qalan 5 dəqiqəni müəllim dərsin yekunlaşdırılmasına sərf edir.

Birinci 20 dəqiqədə 1-ci qrup mövzu ilə əlaqədar suallar verir, o biri qrup isə həmin sualları cavablandırır. Sonrakı 20 dəqiqədə qruplar öz yerlərini dəyişirlər. 40 dəqiqə bitdikdən sonra müəllim qalan 5 dəqiqə ərzində konfransın səviyyəsini, fəal olanları və düzgün cavab verənləri qeyd edir, onları qiymətləndirir.

**Müzakirə-diskussiya dərslərində** sinifdəki bütün şagirdlər hər hansı bir mövzunun müzakirəsində iştirak edirlər. Müzakirə prosesində məktəblilərin hər biri mövzu ilə əlaqədar fikirlərini söyləmək imkanı qazanırlar. Bu dərs forması şagirdlərdə əməkdaşlıq etmək, fikir mübadiləsi aparmaq, başqalarının rəy və mülahizələrinə hörmətlə yanaşmaq və ümumiləşdirmə bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

**Ekskursiya dərs forması.** Ekskursiya dərs formasının başlıca əhəmiyyəti ondan ibarətdir ki, təlim materialının bilavasitə əyani surətdə tədrisinə əlverişli şərait yaranır. Belə dərslər ev-muzeylərdə, teatrlarda aparıla bilər. Ekskursiya – dərslərdə şagirdlər dərs prosesində əldə etdikləri məlumatları əyani müşahidə edir, daha təfərrüatlı biliklər qazanır, onları təkrarlayır, tətbiq edir, dünyagörüşlərini genişləndirirlər.

Müasir dövrün tələblərinə uyğun olaraq, "Musiqi" fənninin tədrisində istifadə olunan yeni təlim üsullarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- İnsert;
- BİBÖ;
- Beyin həmləsi;
- Venn diaqramı.

**İnsert metodu.** Bu, işarələr sistemindən istifadə edib düzgün cavab axtarılması metodudur.



LAYİHƏ

Dərsdə informasiya xarakterli mətnləri oxuyub seçmək üçün şagirdlərə müəyyən mətn paylanılır. Mətndə hər bir abzasın qarşısında aşağıdakı işarələrdən biri qoyulur:

"?" – məlumat başa düşülmür;

"B" – əvvəl bildiklərim;

"+" – yeni məlumat;

"-" – əvvəl bildiklərimi inkar edən biliklər.

Beləliklə, bütün siniflə ümumiləşdirmələr aparılır, məlumatın şagirdlərə nə dərəcədə aydın olduğu və ya aydın olmadığı aydınlaşdırılır, eləcə də onlar üçün yeni biliklər müəyyənləşdirilir və izah edilir.

**Beyin həmləsi.** Bu metod tətbiq edilərkən şagirdlərin sərbəst fikirlərindən istifadə olunur. Bunun üçün müəllim bütün sinfi müəyyən bir problemlə əlaqədar fikir söyləmək üçün səfərbər edir. Şagirdlər qısa müddətdə bu problemlə əlaqədar bildiklərini söyləyirlər. Müəllim fikirlərin hamısını dinləyir, lakin onları şərh etmir. Sonra bu fikirlər müəllim tərəfindən təhlil və izah edilir.

Bu metodun məqsədi az vaxtda şagirdlərdən daha çox fikir toplamaq və onları ümumiləşdirməkdir.

**BİBÖ cədvəli.** Bu metodun tətbiqində məqsəd əvvəlki bilik və təcrübə ilə yeni bilik arasında əlaqə yaratmaqdır. Bu metod beyin həmləsi üsulu ilə başlaya bilər. Sinif cütlərə və ya qruplara bölünür, mövzu elan edilir. Mövzu ilə bağlı olan yeni söz və terminlər aydınlaşdırılıb cədvəldə yerinə yazılır.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

Bundan sonra cütlər və ya qruplar müəllimlə mövzu ətrafında fikir mübadiləsi aparır və ümumiləşdirilmiş fikir lövhədəki cədvəldə qeyd olunur.

**Venn diaqramı.** Venn diaqramı iki kəsişən çevrədən ibarətdir. Müxtəlif mövzularda olan oxşar cəhətlər müəyyənləşir və bu çevrələrin kəsişən hissəsində yazılır. Çevrələrin kəsişməyən hissələrində isə mövzuların fərqli cəhətləri qeyd olunur.

Mövzuların sayından asılı olaraq bu çevrələr arta bilər.

## Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

Planlaşdırma hər bir fənn müəlliminin, o cümlədən musiqi müəlliminin qarşısında duran vacib vəzifələrdən biridir. Planlaşdırma dərsin məqsədlərini müəyyənləşdirir və müəllimin mövzu ilə əlaqədar fəaliyyətini düzgün istiqamətləndirir. İllik planlaşdırmada tədris vahidlərinə uyğun olaraq, hər bir dərsin mövzusu və ona ayrılan saat miqdarı qeyd olunur. Tədris vahidləri məzmun standartlarına uyğun olaraq müəyyən edilir və onların ardıcıllıq prinsipləri müəyyənləşdirilir. Bu zaman sadədən mürəkkəbə olan məzmun ardıcıllığı, zamanla əlaqədar xronoloji ardıcıllıq, eyni zamanda məntiqi ardıcıllıq gözlənilməlidir. Tədris vahidinə uyğun saatlar müəyyənləşdirilərkən mövzuların əhəmiyyətliliyi, həcmi və mürəkkəbliyi, eyni zamanda şagirdin maraqları da nəzərə alınmalıdır. Musiqi müəllimi illik, yarımillik, həm də gündəlik dərs planlaşdırması apararkən Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş məz-



LAYİHƏ

mun standartlarına, qiymətləndirmə standartlarına, tədris planına, dərsliyə və müəllim üçün vəsaitə əsaslanmalıdır.

Müəllim tədris ediləcək mövzuları aşağıdakı sxemə uyğun planlaşdıra bilər:

***Nümunə 1.***

| Standart | Təlimin məqsədi | Tədris vahidi | Mövzu | Saat | Forma və üsullar | Qiymətləndirmə növləri | Resurs |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |

### "Musiqi" dərsinin gündəlik planlaşdırılmasına nümunə

**Mövzu:** Musiqi sürəti
**Məzmun standartları:** 1.1.1., 1.2.1., 1.2.2.
**İnteqrasiya:** T.i.: 1.2.1.; Əd.: 1.2.3.
**Məqsəd:**
1. Musiqidə sürət yaratmaq üçün musiqi ifadə vasitələrinin rolunu başa düşür.
2. Musiqinin inkişafında musiqi hərəkətinin əhəmiyyətini anlayır.

**İş üsulu:** Beyin həmləsi, müzakirə, müsahibə.
**Dərsin mərhələləri:**

***1. Motivasiya***

Keçmiş dərsdən öyrənilmiş Vasif Adıgözəlovun "Vətən haqqında mahnı"sını şagirdlər yada salaraq ifa etdikdən sonra bəstəkar Cahangir Cahangirovun "Azad" operasından "Çahargah" xoru dinlənilir. Bu əsəri dinləməzdən əvvəl musiqidə inkişaf haqqında qısa söhbət aparılır. Bundan sonra şagirdlərə sualla müraciət olunur:

– Uşaqlar, "Azad" operasından "Çahargah" adlanan əsər hansı janra məxsusdur?
– Bu əsəri hansı kollektiv oxuyur?

**Tədqiqat sualı:**
– Heç bir hərəkət və inkişaf olmayan musiqi əsəri mövcuddurmu?

***2. Tədqiqatın aparılması***

Müəllim "Çahargah" xor əsərini əvvəlcə kiçik sürətlə, sonradan təbii ifa olunduğu sürətlə səsləndirir. Bundan sonra bu iki eyni əsərin səslənmə sürətinin onun keyfiyyətinə nə dərəcədə mənfi təsir etdiyi araşdırılır. Bununla əlaqədar şagirdlərə belə sualla müraciət olunur:

– Uşaqlar siz eyni musiqi əsərini əvvəlcə sürəti azaldılmış, sonradan bəstəkarın yazdığı tempə uyğun dinlədiniz. Bunlardan hansı daha çox xoşunuza gəldi?

Əlbəttə ki, şagirdlər ikinci ifanı daha çox bəyəndilər və qeyd etdilər ki, bəstəkarın göstərdiyi temp musiqini daha enerjili, sürətli və təsirli edir.



LAYİHƏ

*3. İnformasiya mübadiləsi və müzakirəsi*

Mövzu ilə əlaqədar müəllim şagirdlərə başa salmalıdır ki, musiqi həyatı, təbiət, cəmiyyət hadisələrini tərənnüm edən bir vasitə olduğu üçün, o, həmişə hərəkətdə və inkişafda olmalıdır. "Çahargah" xoru bu fikri sübut etmək üçün gözəl nümunə ola bilər.

*4. Nəticə və ümumiləşdirmə*

Musiqinin inkişafı üçün bəstəkarlar hərəkət sürətindən (tempdən), musiqinin gücündən və digər ifadə vasitələrindən istifadə edirlər.

*5. Yaradıcı tətbiqetmə*

Müəllim Polad Bülbüloğlunun "Şən Azərbaycan" mahnısının melodiyasını əvvəlcə notla şagirdlərlə birlikdə oxuyur, sonra isə bu melodiyanı sözləri ilə oxutdurur.

*6. Qiymətləndirmə və ya refleksiya*

Dərs ümumiləşdirilir və müəllim dərsi yekunlaşdırmaq üçün müxtəlif suallar verir.

## Məzmun standartları

VII sinfin sonunda şagird:

Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında bilik və bacarıqlar nümayiş etdirir.

Azərbaycan musiqi folklor nümunələri (mahnı, rəqs), muğam və aşıq havalarına dair bilik və bacarıqlar nümayiş etdirir.

Musiqi əsərlərinin melodiyası, ritmi və onlarda istifadə edilmiş bədii nümunələr haqqında fikrini nümayiş etdirir.

Musiqi əsərlərini hissi-emosional cəhətdən dərk etdiyini nümayiş etdirir.

Dinlədiyi musiqidən yaranan təəssüratlarını müxtəlif formada ifadə edir.

Mahnını not və mətni ilə oxuyur.

Fərdi, qrup və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.

## Məzmun xətləri üzrə əsas və altstandartlar

*1. Musiqi aləmi*

**Şagird:**

1.1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında bilik və bacarıqlar nümayiş etdirir.

1.1.1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərlərinə münasibətini bildirir.

1.1.2. Azərbaycan və Avropa bəstəkarlarının proqramlı əsərləri haqqında fikirlərini izah edir.

1.2. Azərbaycan musiqi folklor nümunələri (mahnı, rəqs), muğam və aşıq havalarına dair bilik və bacarıqlar nümayiş etdirir.



LAYİHƏ

1.2.1. Azərbaycan musiqi folkloru nümunələrinin bəstəkar yaradıcılığına təsiri barədə münasibətini bildirir.
1.2.2. Muğam və aşıq musiqisinin ifa xüsusiyyətləri haqqında təqdimatlar edir.

***2. Emosional dəyərləndirmə***

**Şagird:**

2.1. Musiqi əsərlərinin melodiyası, ritmi və onlarda istifadə edilmiş bədii nümunələr haqqında fikrini nümayiş etdirir.
2.1.1. Vokal musiqi əsərləri ilə bədii nümunələrin xaraktercə əlaqəsini şərh edir.
2.2. Musiqi əsərlərini hissi-emosional cəhətdən dərk etdiyini nümayiş etdirir.
2.2.1. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında tembrin rolunu şərh edir.
2.2.2. Aşıq musiqisinin emosional hisslərə təsirini izah edir.
2.3. Dinlədiyi musiqidən yaranan təəssüratlarını müxtəlif formada ifadə edir.
2.3.1. Dinlədiyi aşıq havaları haqqında təəssüratlarını ifadə edir.

***3. Musiqi fəaliyyəti***

**Şagird:**

3.1. Mahnını not və mətni ilə oxuyur.
3.1.1. Mahnını kanon şəklində, not və mətni ilə oxuyur.
3.2. Fərdi, qrup və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.
3.2.1. Mahnını solo notla birsəsli, qrup tərkibində ikisəsli oxuyur.

LAYİHƏ

## VII sinif “Musiqi” fənni üzrə illik planlaşdırma

| Tədris vahidi | Dərsin №-si | Dərsin mövzusu | Xorla ifa ediləcək mahnıların müəllifləri | Dinləniləcək musiqi nümunələrinin və müəlliflərinin adları | Saat |
|---|---|---|---|---|---|
| Musiqi obrazı | 1. | Musiqi obrazı və xarakter | “Qaçaq Nəbi” Azərbaycan xalq mahnısı | Ü.Hacıbəyli. “Koroğlu” operasının I pərdəsindən:<br>Koroğlunun və Həsən xanın ariyaları | 1 |
| | 2. | Musiqi obrazlarında xarakter dəyişikliyi | S.Rüstəmov, M.Seyidzadə “Qızıl payız” | F.Şubert. “Meşə çarı” mahnı-balladası<br>F.Şubert. “Meşə çarı” mahnı-balladasından bir parça | 1 |
| | 3. | Dram tamaşaları və musiqi obrazı | O.Rəcəbov, A.Babayev “Anam Azərbaycanım” | 1. F.Əmirov. “Kor ərəbin mahnısı”<br>2. E.Qriq. “Per Günt” kamera-simfonik süitasından “Anitranın rəqsi” | 1 |
| | 4. | Operetta və musiqi obrazı | Ü.Hacıbəyli. “Arşın mal alan” operasından “Qızların xoru” | Ü.Hacıbəyli. “Arşın mal alan” operettasından Əsgərin ariyası və “Vəli və Tellinin dueti” | 1 |
| | | **KSQ** | | | 1 |
| | 5. | Azərbaycan mahnılarında məkan obrazı | S.Rüstəmov, N.Cəfəroğlu “Sumqayıt” | “Şuşanın dağları”.<br>Xan Şuşinski | 1 |
| | 6. | Musiqi obrazları Azərbaycan və rus bəstəkarlarının yaradıcılığında | Q.Qarayev, Y.Dolmatovski “Gənclik mahnısı” | 1. M.İppolitov-İvanov. “Türk fraqmentləri” süitasından ninni<br>2. Q.Qarayev “Leyli və Məcnun” simfonik poemasından köməkçi mövzu<br>3. N.A.Rimski-Korsakov. “Şəhrizad” simfonik süitasından I hissə | 2 |
| | 7-8. | Azərbaycan xalq rəqslərində musiqi obrazları | “Çal-oyna” Azərbaycan xalq mahnı-rəqsi | 1. “Qaytağı” Azərbaycan xalq rəqsi<br>2. “Zorxana” Azərbaycan xalq rəqsi<br>3. “Darçını” Azərbaycan xalq rəqsi<br>4. Ü.Hacıbəyli. “O olmasın, bu olsun” operettasından “Məşədi İbad və Rüstəm bəyin dueti” | 2 |
| | | **KSQ** | | | 1 |
| | 9-10. | Xalq və bəstəkar mahnılarında layla xarakteri | Fikrət Əmirov, N.Xəzri “Layla” | 1. Fikrət Əmirov. “Sevil” operasından “Layla”<br>2. Z.Bağırov . “Layla” | 2 |
| | 11. | Proqramlı musiqi və musiqi obrazı | Səadət Fərziyeva “Qar” | 1. C.Hacıyev. “Musiqi şəkilləri” silsiləsindən “Marş”<br>2. M.Musorqski. “Sərgidən şəkillər” silsiləsindən “Küpəgirən qarı” | 1 |
| | 12. | Miniatür və musiqi obrazı | S.Rüstəmov, S.Rüstəm “Vətən” | 1. F.Əmirov. “12 miniatür” fortepiano pyesləri silsiləsindən “Barkarola”<br>2. P.Çaykovski. “İlin fəsilləri” fortepiano pyesləri silsiləsindən “Barkarola” | 1 |



LAYİHƏ

| Tədris vahidi | Dərsin №-si | Dərsin mövzusu | Xorla ifa ediləcək mahnıların müəllifləri | Dinləniləcək musiqi nümunələrinin və müəlliflərinin adları | Saat |
|---|---|---|---|---|---|
| | Keçilmiş mövzuların təkrarı | | | | 1 |
| | | **KSQ** | | | 1 |
| **Musiqi dramaturgiyası** | 15. | Qara Qarayevin “Yeddi gözəl” baletinin drama-turgiyası | T.Quliyev, S.Rüstəm “Azərbaycana gəlsin” | Q.Qarayev. “Yeddi gözəl” baletindən:<br>1. “Adajio”<br>2. “Gözəllər gözəli”<br>3. “Vals” | 1 |
| | 16. | Arif Məlikovun “Məhəbbət əfsa-nəsi” baletinin dramaturgiyası | R.Mirişli, M.Araz “Doğma diyar” | A.Məlikov. “Məhəbbət əfsanəsi” baletindən:<br>1. “Təlxəklərin rəqsi”<br>2. “Türk qızlarının rəqsi” | 1 |
| | 17. | Oratoriya və dramaturgiya | T.Hacıyev, A.Aslanov “Lalələr” | V.Adıgözəlov, T.Elçin. “Qarabağ şikəstəsi” oratoriyasının VII hissəsi | 1 |
| | 18. | Əşrəf Abbasovun “Qaraca qız” baletinin dramaturgiyası | N.Mirməmmədli, Z.Xınalı “Əsgər qardaşlar” | Ə.Abbasov. “Qaraca qız” baletindən “Qaraca qızla Ağcanın dueti” | 1 |
| | 19. | Müslüm Maqomayevin “Şah İsmayıl” operasının dramaturgiyası | E.Sabitoğlu, Kərkük bayatıları “Şirin dil” | M.Maqomayev. “Şah İsmayıl” ope-rasından:<br>1. I pərdədən “Aslan şahın ariyası”<br>2. “Ərəblərin yeni düşərgəsində Gülzarla tacirin toyu” | 1 |
| | | **KSQ** | | | 1 |
| | 20. | Əfrasiyab Bədəl-bəylinin “Qız qalası” baletinin dramaturgiyası | T.Quliyev, Ə.Əlibəyli “Bakı” mahnısı | Ə.Bədəlbəylinin “Qız qalası” baletindən I pərdədən “Adajio” | 1 |
| | 21. | Musa Mirzəyevin “Romantik vals poema”sı və İohann Ştrausun “Vyana meşəsinin valsı” əsərlərinin dramaturgiyası | T.Quliyev “Görüş” filmindən vals | 1. M.Mirzəyev. “Romantik vals-poema” əsərindən bir parça<br>2. İ.Ştraus. “Vyana meşəsinin valsı”. Əsas melodiyadan bir parça | 1 |
| | 24. | Vətən mövzusu və musiqi | E.Sabitoğlu, B.Vahabzadə “Azərbaycan” | M.Oginski. “Vətənlə vidalaşma” polonezi | 1 |



LAYİHƏ

| Tədris vahidi | Dərsin №-si | Dərsin mövzusu | Xorla ifa ediləcək mahnıların müəllifləri | Dinləniləcək musiqi nümunələrinin və müəlliflərinin adları | Saat |
|---|---|---|---|---|---|
| Musiqi dramaturgiyası | 25. | Fikrət Əmirovun "Sevil" operasının dramaturgiyası | F.Əmirov "Sevil" operasından "Atakişinin kupletləri" | F.Əmirov. "Sevil" operasından: III pərdədən "Balaşın ariyası" | 1 |
| | 26. | Fikrət Əmirovun "Sevil" operasından "Dilbərin nəğməsi" ilə Jorj Bizenin "Karmen" operasından "Xabanera" arasında əlaqələr | F.Əmirov, T.Mütəllibov "Odlar ölkəsi" | 1. F.Əmirov. "Sevil" operasından "Dilbərin nəğməsi"<br>2. J.Bize. "Karmen" operasından "Xabanera" | 1 |
| | 27. | Böyük Vətən müharibəsi obrazı və musiqi | Ş.Musaoğlu "Vətən əmanəti" | D.Şostakoviç. "7-ci simfoniya"dan "Basqın" epizodu | 1 |
| | | **KSQ** | | | 1 |
| | 28. | Cövdət Hacıyevin "Sülh uğrunda" simfonik poemasının dramaturgiyası | Ə.Məmmədov, Ə.Vahid "Xudayar təsnifi" | C.Hacıyev. "Sülh uğrunda" simfonik poemasından<br>1. Giriş, əsas və köməkçi mövzularının hərəsindən bir parça<br>2. Əsas mövzudan bir parça. | 1 |
| | 29. | Migel de Servantesin və Qara Qarayevin eyniadlı "Don Kixot" əsərlərinin dramaturgiyası | T.Quliyev, Z.Cabbarzadə "Sevinc mahnısı" | Q.Qarayev. "Don Kixot" simfonik qravürlərindən "Aldonsa" | 1 |
| | 30. | Musiqidə bayram mövzusu | Ə.Cavanşirov, H.Ziya "Mübarək" | Ü.Hacıbəyli, Ə. Cavad. Azərbaycan Respublikasının Dövlət himni | 1 |
| | | **KSQ** | | | 1 |

**P.S.** İllik planlaşdırma cədvəlindəki musiqi materiallarını müəllim mövzuya uyğun olaraq dəyişə bilər. Bu zaman seçilmiş yeni musiqi nümunələri VII sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğun olmalıdır.

LAYİHƏ

## Məzmun standartlarının və inteqrasiyanın tətbiqi

Alt standartlar

| Dərslər | Məzmun standartları | | | | | | | | | | İnteqrasiya | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1.1. | | 1.2. | | 2.1. | 2.2. | | 2.3. | 3.1. | 3.2. | Fən-daxili | Fənlərarası | | |
| | 1.1.1. | 1.1.2. | 1.2.1. | 1.2.2. | 2.1.1. | 2.2.1. | 2.2.2. | 2.3.1. | 3.1.1. | 3.2.1. | | Əd. | H.B. | T.İ. |
| 1. | + | | | | + | | | | | + | 3.1.1. | 1.1.5. | | 3.1.1. |
| 2. | + | | | | | | | | | + | 3.1.1. | 1.1.5. | | 3.1.1. |
| 3. | + | | | | + | | | | | + | 3.1.1. | | | |
| 4. | + | | | | | + | | | | + | 3.2.1. | | | |
| KSQ | | | | | | | | | | | | | | |
| 5. | | | + | | | + | | | | + | 3.2.1. | | 3.2.1. | |
| 6. | + | | | | | | | | | + | 3.1.1. | | | |
| 7-8. | | | + | | | | | | | + | 3.1.1. | | | |
| KSQ | | | | | | | | | | | | | | |
| 9-10. | | | + | | | | | | | + | 3.1.1. | | | |
| 11. | + | | | | | + | | | | + | 3.1.1. | | | |
| 12. | + | | | | | | | + | | + | 3.1.1. | 1.2.1. | | 3.1.1. |
| Keçilmiş mövzuların təkrarı | | | | | | | | | | | | | | |
| KSQ | | | | | | | | | | | | | | |
| 15. | | | + | | + | | | | | + | 3.1.1. | | 1.2.1. | |
| 16. | | | + | | + | | | | | + | 3.1.1. | | | |
| 17. | + | | + | | | | | | | + | 3.1.1. | 2.2.1. | | |
| 18. | | | + | | + | | | | | + | 3.1.1. | | | |
| 19. | | | + | | | | | | | + | 3.1.1. | 1.2.3. | | 3.1.1. |
| KSQ | | | | | | | | | | | | | | |
| 20. | | | + | | + | | | | | + | 3.2.1. | 1.1.5. | | 3.1.1. |
| 21. | + | | | | + | | | | | + | 3.1.1. | | | |
| Keçilmiş mövzuların təkrarı | | | | | | | | | | | | | | |
| KSQ | | | | | | | | | | | | | | |
| 24. | + | | | | | | | | | + | 1.1.1. | 1.1.5. | | 3.1.1. |
| 25. | | + | | | | | | | | + | 3.2.1. | | 3.2.1. | |
| 26. | + | | | | | | | | | + | 3.2.1. | | | |
| 27. | + | | | | + | | | | | + | 3.2.1. | | 1.2.1. | |
| KSQ | | | | | | | | | | | | | | |
| 28. | | | + | + | | | | | | + | 3.2.1. | | | |
| 29. | | | | | + | | | | | + | 3.1.1. | 1.1.5. | | 3.1.1. |
| 30. | | | + | | | | | | | + | 3.1.1. | 1.2.3. | | 3.1.1. |
| KSQ | | | | | | | | | | | | | | |

LAYİHƏ

# Musiqi obrazı

## 1. MUSİQİ OBRAZI VƏ XARAKTER

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir.
2. Bəstəkarın ritm, temp və dinamik nüanslardan müxtəlif variantlarda istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.
3. Mahnının melodiyasını fərdi, qrup və kollektiv tərkibində ikisəsli və sözləri ilə oxuyur.

**Bu mövzunun mənimsənilməsində Venn diaqramı, beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək mümkündür.**

**1**

Üzeyir Hacıbəylinin "Koroğlu" operasından Koroğlunun və Həsən xanın ariyaları səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlənilən bu iki musiqi nümunəsinin oxşar və fərqli cəhətləri hansılardır?"* və *"Dinlədiyiniz musiqi nümunələrindəki musiqi obrazlarının xarakteri necədir?"*** – verilə bilər.

Tədqiqatın aparılması üçün sinif 3 qrupa bölünür.

I qrup Venn diaqramında musiqi nümunələrinin oxşar cəhətlərini yazır, II qrup musiqi obrazlarının xarakteri haqqında fikir söyləyir, III qrup isə iki əsərin fərqli tərəflərini araşdırır. Beləliklə, şagirdlər dərslikdə göstərilmiş oxşar, fərqli cəhətlər, musiqi obrazlarının xarakteri haqqında bilikləri mənimsəmiş olurlar.

MÖVZU 1

**MUSİQİ OBRAZI VƏ XARAKTER**

1

***Musiqi dinləyək***

**Üzeyir Hacıbəyli.**

*"Koroğlu" operasının I pərdəsindən Koroğlunun və Həsən xanın ariyaları*



*Üzeyir Hacıbəyli*



*"Koroğlu" operasından Koroğlu*



*"Koroğlu" operasından Həsən xan*

2

**İki musiqi əsərinin oxşar və fərqli cəhətləri**




Koroğlu xalq qəhrəmanıdır. Xalqı xanların, paşaların zülmündən qurtaran bir insan və eyni zamanda el nəğməkarı — aşıq olduğu üçün bu obrazda mülayimlik, mübarizlik və səmimiyyət ön plana çəkilir. O, yenilməz qüvvəyə, yüksək mənəvi keyfiyyətlərə malikdir.

Həsən xan xalqın sərvətini talayan, hökmran və zülmkar bir obrazdır. Həsən xan surətinin xarakterində qəddarlıq, qəzəb və acgözlük vurğulanır. O, xalqı istismar edir və var-yoxunu mənimsəyir.

6

### DİFERENSİAL TƏLİM

Əvvəlki siniflərdə "Koroğlu" operasından eşitdiyi musiqi nümunələri arasındakı oxşar, fərqli cəhətlər və musiqi xarakterləri haqqında fikrini izah edir.

1. Musiqinin tempinə və ritminə uyğun əl çalır.
2. Musiqinin xarakterini şəkillərdə əks etdirir.

LAYİHƏ

Hər iki musiqi nümunəsinin xarakteri, fərqli və oxşar cəhətləri haqqında informasiya mübadiləsi aparılır.

Belə bir nəticəyə gəlinir ki, bəstəkarların yaratdıqları əsərlər arasında oxşar, fərqli cəhətlər ola bilər və musiqi obrazını yaradarkən müxtəlif musiqi ifadə vasitələrindən – ritmdən, tempdən, tembrdən, melodiyadan, polifoniyadan və s. istifadə edilir.

MÖVZU 1

Üzeyir Hacıbəyli "Koroğlu" operasında müxtəlif xarakterli musiqi obrazları yaradıb. Xalqın mübariz bir kütləyə çevrilməsi operada böyük ustalıqla işlənib. Operada Koroğlunun, Həsən xanın, Nigarın, Keçəl Həmzənin və digərlərinin öz obrazına uyğun xarakteri var.

Digər bir xalq qəhrəmanı Qaçaq Nəbi haqqında dastan da xalq tərəfindən həmişə sevilib və həvəslə ifa edilib. Qaçaq Nəbi kəndliləri varlıların zülmündən qoruduğu üçün sadə insanların sevimli qəhrəmanına çevrilib.

2

*Yeni mahnı öyrənək*

**QAÇAQ NƏBİ**

*Azərbaycan xalq mahnısı*

**I**

Boz at, səni sər tövlədə bağlaram,
And içirəm, səni məxmər çullaram,
ay Boz at, çullaram.
Əgər məni bu davadan qurtarsan,
Qızıldan, gümüşdən səni nallaram,
ay Boz at, nallaram.

**II**

Nəbinin bığları eşmə-eşmədi,
Papağı güllədən deşmə-deşmədi.
deşmə-deşmədi.
Nəbinin Boz atın bir at keçmədi,
Qoy sənə desinlər, ay Qaçaq Nəbi!
Həcəri özündən ay qoçaq Nəbi!

**III**

Gün gəlibdir günortanın yerinə,
Həcər xanım qalxıb atın belinə.
Əşrəfi, mirvarı düzüb telinə,
Qoy sənə desinlər, ay nadan Nəbi!
Tüfəngin havada oynadan Nəbi!

3

**SUAL VƏ TAPŞIRIQLAR**

1. "Koroğlu" operasında Koroğlu ilə Həsən xanın ariyalarının oxşar cəhətləri hansılardır?
2. "Koroğlu" operası haqqında şifahi təqdimat edin.
3. "Qaçaq Nəbi" mahnısında xalq qəhrəmanının xarakteri ilə mahnının xarakteri arasındakı oxşarlığı izah etməyə çalışın.

7

## YARADICI TƏTBİQETMƏ

3

Xalq mahnısı "Qaçaq Nəbi" notla ifa olunur. Mahnıdakı musiqi obrazının xarakteri, tempi, xanə ölçüsü, birinci bəndin mətni və melodiyası arasındakı uyğunluq şərh olunur. Mahnının solo və xor kollektivi üçün yazıldığı şagirdlərə aydınlaşdırılır. Əgər sinfin ifaçılıq səviyyəsi yüksəkdirsə, mahnı 2-3 səsli, aşağı səviyyədədirsə, təksəsli şəklində notla ifa olunur.

***Tapşırıq 1.*** Koroğlu və Həsən xan obrazlarına uyğun şifahi təqdimat hazırlayın.

***Tapşırıq 2.*** "Qaçaq Nəbi" mahnısında əks olunmuş musiqi obrazına uyğun şəkil çəkin.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***

1. Müəllim tərəfindən əyani vəsaitlərlə təqdimat şəklində.
2. Şagirdlər tərəfindən fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavab qarşısına (+) işarəsi qoyun.

**1. "Koroğlu" operasının müəllifi kimdir?**

a) F.Əmirov ☐ b) Ü.Hacıbəyli ☐ c) A.Məlikov ☐

**2. "Qaçaq Nəbi" mahnısının xarakteri necədir?**

a) qəhrəmanlıq ☐ b) mülayim ☐ c) marş ☐

LAYİHƏ

## 2. MUSİQİ OBRAZLARINDA XARAKTER DƏYİŞİKLİYİ

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.
2. Mahnının melodiyasını notla və sözləri ilə bir və ikisəsli oxuyur.

**Mövzunun öyrədilməsində beyin həmləsi, müzakirə, müqayisə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**


MÖVZU 2

MUSİQİ OBRAZLARINDA XARAKTER DƏYİŞİKLİYİ

*Musiqi dinləyək*
**Frans Şubert.**
*"Meşə çarı" mahnı-balladası*

İ.Hötenin "Meşə çarı" balladası bir çox bəstəkarın diqqətini cəlb edib. Bu balladaya bəstələnmiş kompozisiyalardan ən uğurlusu isə Frans Şubertin bəstələdiyi "Meşə çarı" mahnı-balladasıdır.

"Meşə çarı" mahnı-balladası bir ifaçı tərəfindən səsləndirilir. Lakin əsərdə müəllif, ata, oğul və meşə çarı obrazları hər biri müxtəlif xarakterlidir. Yəni bir ifaçı eyni əsər daxilində dörd obrazın musiqili xarakterini yarada bilir.

*Frans Şubert*

*İohann Höte*

1 *Musiqi dinləyək*
**Frans Şubert.**
*"Meşə çarı" mahnı-balladasından bir parça*

"Meşə çarı" mahnı-balladasında real və qeyri-real obrazlar var. Müəllif, ata, oğul — real obrazlardır. Meşə çarı (ölüm) isə qeyri-real obrazdır.

Əsər fortepiano alətinin müşayiəti ilə səslənir.

Obrazlardakı gərginlik özünü, eyni zamanda daimi hərəkətdə olan fortepiano müşayiətində də göstərir. Müəllif, ata və oğul obrazlarını intonasiya və xarakter yaxınlığı birləşdirir. Amma mətndən asılı olaraq, balladanın musiqisində hər obraz üçün yeni cizgilər, fərdi keyfiyyətlər

8

**1** Frans Şubertin "Meşə çarı" mahnı-balladası səsləndirilir, sonradan həmin əsərdən bir parça notla ifa edilir.

**2** Tədqiqat sualı kimi ***"Meşə çarı" mahnı-balladasında hansı musiqi obrazları öz əksini tapmışdır?*** – verilə bilər. Müəllim şagirdlərin diqqətini müəllif, ata, can verən oğul və meşə çarının obrazları göstərilən sxemə yönəldir. Sonra sinif 3 qrupa bölünür. Musiqi səsləndikdə uşaqlar melodiyaya uyğun olaraq obrazları tapırlar.

Bundan sonra şagirdlər bu əsərdən bir parçanın melodiyasını notla oxuyurlar.

### DİFERENSİAL TƏLİM

Frans Şubertin "Meşə çarı" mahnı-balladasındakı obrazları düzgün təyin edir və əsərin melodiyasını notla oxuyur.

1. Əsərdəki obrazlara uyğun şəkil çəkir.
2. Musiqi obrazlarına uyğun bədən hərəkətləri edir.



LAYİHƏ

Musiqidəki obrazlara uyğun xarakter dəyişikliklərində musiqi ifadə vasitələrinin rolu ətrafında informasiya mübadiləsi və müzakirələr aparılır.

Şagirdlər belə nəticəyə gəlirlər ki, hər bir musiqi obrazının özünəməxsus xarakteri vardır və bəstəkar musiqi xarakterlərini musiqi ifadə vasitələrinin köməyi ilə yaradır.


MÖVZU 2

işlənib. Meşə çarı obrazı isə əvvəlcə bir qədər cəlbedici təsir bağışlayır. Sonra obrazın təcavüzkar və zalım olduğu aydınlaşır.

1

*Yeni mahnı öyrənək*

**QIZIL PAYIZ**

*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*

Payız gəlib, əsir külək,
Düşür yerə qızıl yarpaq.
Xəzəl olur hər gül-çiçək,
Qızıl rəngə dönür torpaq.

Yağış yağır narın-narın,
Almaları yuyur bağda.
Alov kimi rəngi narın,
Şölə saçır hər budaqda.

Göy üzündən bulud keçir,
Dərələri tutur duman.
Qanadlanıb quşlar köçür
Uzaqlara karvan-karvan.

3

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Frans Şubertin “Meşə çarı” mahnı-balladasındakı real və qeyri-real (fantastik) obrazlar haqqında danışın.
2. Səid Rüstəmovun Mirmehdi Seyidzadənin sözlərinə bəstələdiyi “Qızıl payız” mahnısında payız necə təsvir edilmişdir?
3. “Azərbaycan nəğmələrdə” mövzusunda şifahi təqdimat hazırlayın.

9

## YARADICI TƏTBİQETMƏ

3

Bəstəkar Səid Rüstəmovun şair Süleyman Rustəmin sözlərinə yazdığı “Vətən” mahnısı sözlərilə birlikdə öyrədilir.

***Tapşırıq 1.*** Mahnının musiqisi ilə sözləri arasında xarakter uyğunluğunun olub-olmaması haqqında fikir söyləyin.

***Tapşırıq 2.*** Mətnin mövzusuna uyğun şifahi təqdimat hazırlayın.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllimin əyani vəsaitlərlə şifahi təqdimatı şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Meşə çarı” mahnı-balladasının bəstəkarı kimdir?**

a) İ.S.Bax ☐  b) P.İ.Çaykovski ☐  c) F.Şubert ☐

**2. “Vətən” mahnısının müəllifləri kimlərdir?**

a) Oqtay Rəcəbov, Sevinc Nuruqızı ☐
b) Şəfiqə Axundova, Cavad Cavadlı ☐
c) Səid Rüstəmov, Süleyman Rüstəm ☐



LAYİHƏ

## 3. DRAM TAMAŞALARI VƏ MUSİQİ OBRAZI

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələrinin əsərləri haqqında biliklərini izah edir.

2. Bəstəkarın ritm, temp və dinamik nüanslardan istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.

3. Mahnının melodiyasını fərdi, qrup və kollektiv tərkibində ikisəsli və sözləri ilə oxuyur.

**Mövzunun öyrədilməsində beyin həmləsi, müzakirə, müqayisə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Şeyx Sənan" dram tamaşasına yazdığı "Kor ərəbin mahnısı" dinləmək üçün səsləndirilir. Bundan sonra Norveç bəstəkarı Edvard Qriqin "Per Günt" dram əsərinə bəstələdiyi "Anitranın rəqsi" səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu iki musiqi nümunələrinin oxşar və fərqli cəhətləri nədən ibarətdir?"*** – verilə bilər.

Tədqiqatın həyata keçirilməsi üçün müqayisə üsulundan istifadə etməklə hər iki əsərin dram tamaşasına yazıldığı, xaraktercə birinin qəmli-kədərli, digərinin şən-oynaq səsləndiyi müəyyənləşdirilir. Digər tərəfdən "Kor ərəbin mahnısı"nın kişi vokal səsi ilə, "Anitranın rəqsi"nin isə yalnız simfonik orkestr tərəfindən müşayiət olunduğu müəyyənləşdirilir.

**3**

Bunlardan sonra "Anitranın rəqsi"ndən bir parça notla ifa edilir və şagirdlər dinlədikləri və notla oxuduqları bu əsər haqqında fikirlərini söyləyirlər.

MÖVZU 3

**DRAM TAMAŞALARI VƏ MUSİQİ OBRAZI**


*Fikrət Əmirov*


*"Şeyx Sənan" tamaşasından Kor ərəb*


*Hüseyn Cavid*

**1**

Bəstəkar Fikrət Əmirov opera, balet və operettaların, müxtəlif janrlı simfonik, vokal-simfonik muğamların, xor əsərlərinin, mahnıların, kinofilmlərə və teatr tamaşalarına bəstələnmiş musiqi nümunələrinin müəllifidir. Bəstəkar Fikrət Əmirovun şair, yazıçı, dramaturq Hüseyn Cavidin "Şeyx Sənan" tamaşasına yazdığı musiqi əsl sənət incisidir. Bu tamaşadan "Kor ərəbin mahnısı" adlı musiqi nümunəsi uzun illərdir xanəndələrimizin repertuarını bəzəyir. Mahnının ilk ifaçısı Məmmədəli Əliyev olmuşdur.

***Musiqi dinləyək***

**Kor ərəbin mahnısı.**

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Hüseyn Cavidindir.*

Mahnı kor ərəbin əzablı həyatını canlandırır. Mahnıda "Bayatı-Kürd" muğamının intonasiyalarından istifadə edilmişdir.

**2**

***Musiqi dinləyək***

**Edvard Qriq.**

*"Per Günt" kamera-simfonik süitasından "Anitranın rəqsi"*


*Edvard Qriq*

Avropa bəstəkarlarının yaradıcılığında da dram əsərlərinə yazılmış musiqi nümunələri var. Norveç bəstəkarı Edvard Qriqin yazıçı Henrik İbsenin "Per Günt" dramına bəstələdiyi kamera-simfonik süitası da belələrindəndir. Əsər Per Güntün macəralarına həsr edilmişdir.

Per Günt atasından qalan var-dövləti xərcləyib qurtarır və kəndlilər pis davranışına görə onu kənddən qovur. Kəndi tərk edərkən anası

10

## DİFERENSİAL TƏLİM

Fikrət Əmirovun və Edvard Qriqin dinlənilmiş əsərləri, oradakı obrazlar haqqında sərbəst fikir söyləyir.

1. Melodiyaların ritmini tutur.
2. Dinlədiyi musiqi nümunələrinin məzmununa uyğun şəkil çəkir.

LAYİHƏ

Fikrət Əmirovun və Edvard Qriqin dinlənilmiş əsərləri ətrafında informasiya mübadiləsi və müzakirələr aparılır.

Nəticə olaraq belə bir ümumi fikrə gəlinir ki, dinlənilmiş əsərlərdə hər iki bəstəkar öz xalqının musiqisinə əsaslanmışdır.


MÖVZU 3

qoca Oze qarı onun qolları arasında dünyasını dəyişir. Solveyq uzaq diyarlarda başına qəribə hadisələr gələn Per Güntə sadiq qalır. Uzun illər onun yolunu gözləyir. Per Günt 40 il səyahət edir. Xəstə və qocalmış vəziyyətdə vətənə qayıdır. Solveyq Per Güntü bağışlayır.

"Per Günt" əsərində Anitranın rəqsi mazurka tempindədir.

**BUNU DA BİLİN**

Mazurka Polşa xalq rəqsidir. Rəqs — yarandığı Mozaviyada yaşayan mazur xalqının adı ilə məşhurlaşıb. XVII əsrdə mazurka Polşa kəndli rəqsləri silsiləsindən hesab edilirdi. XIX əsrdən isə Avropa ölkələrində bal rəqsi kimi tanınmağa başladı.

2

*Yeni mahnı öyrənək*

**ANAM AZƏRBAYCANIM**

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Adil Babayevindir.*

**I**

Mən sənə həmişə "Anam" demişəm,
Ülfətin şirindir, nəfəsin ılıq.
İnan ki, bürüyər ürəyimi qəm,
Əgər aramıza düşsə ayrılıq.

***Nəqərat:***
Anam mehribanım, Azərbaycanım,
Düşmərəm bir an da səndən ayrı mən.
Sonsuz məhəbbətim, sözüm, dastanım
Yaranıb əbədi məhəbbətimdən.

**II**

Xəzərin, Göygölün, Arazın, Kürün
Eşqini qoparmaq olmaz sinəmdən.
Neçə min həyatın, neçə min ömrün
Sevinci, bəzəyi, fərəhisən sən.

**III**

Sazın da, neyin də, incə tarın da,
Qocan da, gəncin də mənə əzizdir.
Zərif bayatın da, mahnıların da
Yaşayan eşqimiz, ürəyimizdir.

4

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Hansı məşhur müğənnilər "Kor ərəbin mahnısı"nın ifaçısı olublar? Araşdırma aparın və deyin.
2. "Per Günt" kamera-simfonik süitasının müsbət və mənfi qəhrəmanları haqqında danışın. Per Günt, Solveyq, Oze qarı kimi obrazlarını hansı keyfiyyətlərinə görə müsbət və mənfi olaraq dəyərləndirdiniz?

11

## YARADICI TƏTBİQETMƏ

**4**

Xalq artisti, bəstəkar Oqtay Rəcəbovun şair Adil Babayevin sözlərinə yazdığı "Anam Azərbaycanım" mahnısı öyrədilir.

***Tapşırıq 1.*** Mahnının ritmini əl çalmaqla tutun.

***Tapşırıq 2.*** Mahnının xarakteri haqqında fikir söyləyin.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllimin əyani vəsaitlərlə şifahi təqdimatı şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. Fikrət Əmirovun "Kor ərəbin mahnısı" hansı səs üçün yazılmışdır?**
a) bas ☐ b) tenor ☐ c) soprano ☐

**2. Edvard Qriq hansı ölkənin bəstəkarıdır?**
a) Amerika ☐ b) Almaniya ☐ c) Norveç ☐



LAYİHƏ

# 4. OPERETTA VƏ MUSİQİ OBRAZI

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların məşhur əsərləri haqqında biliklərini izah edir.

2. Musiqi əsərlərindəki hissi-emosional obrazların yaradılmasında melodiya, ritm və tempin rolunu şərh edir.

3. Mahnının melodiyasını bir-iki səsli şəkildə notla və sözləri ilə birlikdə oxuyur.

**Bu mövzunun öyrədilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi üsullardan istifadə etmək məsləhət görülür.**

**1**

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “Arşın mal alan” və digər operettaları haqqında qısa məlumat verilir. Bundan sonra “Arşın mal alan” operettasının sözlərinə uyğun melodiya ikisəsli şəkildə notla ifa olunur.

**2**

“Arşın mal alan” operettasından “Vəli və Tellinin dueti” və Əsgərin ariası səsləndirilir.

**3**

Tədqiqat sualı kimi ***“Dinlədiyiniz duetin xarakteri necədir və bu musiqi nümunəsində hansı obrazlar vardır?”*** – verilə bilər. Tədqiqatın aparılması üçün sinif qızlar və oğlanlar qrupuna bölünür. Hər iki qrup duetin melodiyasını notla oxuyur. Şagirdlər müəyyənləşdirirlər ki, duet qadın və kişi səsi üçün yazılıb, xarakteri rəqsvari, şən-oynaqdır. Melodiyanın sadəliyi və rəqs xarakterli olması imkan verir ki, duet mahnı-rəqs janrına aid edilsin.

MÖVZU 4

**OPERETTA VƏ MUSİQİ OBRAZI**

**1**



***“Arşın mal alan” operettasından Əsgər və Gülçöhrə***

“Arşın mal alan” Üzeyir Hacıbəylinin sonuncu və ən məşhur operettasıdır. Bu operettadan əvvəl bəstəkar “Ər və arvad”, “O olmasın, bu olsun” musiqili komediyalarının müəllifi idi.

“Arşın mal alan” operettasının həyatdan götürülmüş maraqlı süjet xətti var. Operettanın baş qəhrəmanı Gülçöhrə öz hüquqları uğrunda mübarizə aparan Azərbaycan qızlarının ümumiləşdirilmiş obrazıdır. Operettanın digər qəhrəmanı Əsgər evlənəcəyi qızı özü seçmək istəyən gənc tacirdir. Tacir Əsgərin dostu Süleyman vəziyyətdən çıxış yolu tapır. Onun məsləhəti ilə tacir Əsgər kasıb arşınmalçıya çevrilir və arşın malı satmaq üçün girdiyi həyətlərin birində Soltan bəyin qızı Gülçöhrə ilə qarşılaşır.

***Musiqi dinləyək***
**Üzeyir Hacıbəyli.**
*“Arşın mal alan” operettasından Əsgərin ariyası*

**2**

Operettada Süleyman, Asya, Soltan bəy, Cahan xala, Telli və Vəli kimi qəhrəmanların da maraqlı musiqili obrazları yaradılmışdır. Nökər Vəli və qulluqçu Tellinin oxuduqları duetdə onların yumorla yoğurulmuş məhəbbət etirafları öz əksini tapır.

***Musiqi dinləyək***
**Üzeyir Hacıbəyli.**
*“Arşın mal alan” operettasından Vəli və Tellinin dueti*



***“Arşın mal alan” operettasından Vəli və Telli***

12

## DİFERENSİAL TƏLİM

“Arşın mal alan” sözlərinə aid melodiyanı notla ikisəsli oxuyur.

“Vəli və Tellinin dueti”ni notla oxuyur.

1. “Arşın mal alan” sözlərinə və “Vəli və Tellinin dueti”nin melodiyasına uyğun ritm tutur.
2. “Vəli və Tellinin dueti”nin melodiyasına uyğun rəqs edir.

LAYİHƏ

Dinlənilmiş və notla ifa edilmiş musiqi nümunələri, onların xarakteri, ritmi və tempi haqqında müzakirələr aparılır.

Belə nəticəyə gəlinir ki, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yazdığı əsərlər xalq musiqisi ruhuna yaxındır, istifadə etdiyi şeir nümunələri və melodiyanın xarakterləri bir-birinə uyğun gəlir.

MÖVZU 4

"Vəli və Tellinin dueti" şən xarakterə malikdir və qəhrəmanlar onu oxuyarkən eyni zamanda həm də rəqs edirlər. Ona görə də bu dueti mahnı-rəqs adlandırmaq olar.

**BUNU DA BİLİN**

İki nəfərin oxuduğu musiqi nümunəsi duet adlandığı kimi, iki musiqiçinin müxtəlif və eyni musiqi alətlərində birgə ifası da duet adlanır.

3

*Yeni mahnı öyrənək*
**Üzeyir Hacıbəyli.**
*"Arşın mal alan" operettasından*

**QIZLARIN XORU**

*Musiqisi və sözləri Üzeyir Hacıbəylinindir.*



**I**
Arşınmalçı mal göstər,
Bir-bir yerə sal göstər.
Göstər, göstər hər nə var;
Qızlar bəzənmək istər.

***Nəqərat:***
Ax nə gözəl parçadır,
Gülləri də qonçadır,
Toy bəzəyi xonçadır, xonça, xonça.
Ondan bir paltarlıq tikdirsəydim,
Oynardım mən doyunca, doyunca.

4

**SUAL VƏ TAPŞIRIQLAR**

1. "Arşın mal alan" operettasında dövrün hansı mənfi xüsusiyyətləri əks etdirilir?
2. "Arşın mal alan" operettasında "Əsgər və Gülçöhrə"nin dueti ilə "Vəli və Telli"nin duetini müqayisə edin. Bu musiqi nümunələri bir-birindən necə fərqlənir?
3. "Arşın mal alan" operettasının qəhrəmanlarından birinin obrazını yaratmağa çalışın.

13

## YARADICI TƏTBİQETMƏ

4

Bəstəkar Şəfiqə Axundovanın şair Cavad Cavadlının sözlərinə yazdığı "Üzümçülər" mahnısı öyrədilir.

***Tapşırıq 1.*** "Vəli və Tellinin dueti" haqqında kiçik şifahi təqdimat hazırlayın.

***Tapşırıq 2.*** Vəli və Telli obrazlarına uyğun şəkil çəkin.

***Öyrənilmiş mahnı ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllimin əyani vəsaitlərdən istifadə edərək təqdimatı şəklində.
2. Şagirdlər fərdi şəkildə.

**MÖVZU ÜZRƏ TESTLƏR**

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Vəli və Tellinin dueti" hansı musiqi janrına aiddir?**
a) mahnı ☐ b) rəqs ☐ c) mahnı-rəqs ☐

**2. "Arşın mal alan" sözlərinə yazılmış melodiya hansı tempdə səslənir?**
a) cəld ☐ b) aramlı ☐ c) rəqs ☐

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ**



LAYİHƏ

## 5. AZƏRBAYCAN MAHNILARINDA MƏKAN OBRAZI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi folklor nümunələrinə dair biliklərini izah edir.
2. Musiqi əsərlərini hissi-emosional cəhətdən dərk etdiyini nümayiş etdirir.
3. Azərbaycan xalq mahnılarını birsəsli şəkildə oxuyur.

**Mövzunun öyrənilməsində beyin həmləsi, müzakirə və müqayisə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Xalq və bəstəkar mahnıları haqqında qısa məlumat verildikdən sonra "Şuşanın dağları" adlı mahnı dinlənilmək üçün səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Şuşanın dağları" Azərbaycan xalq mahnısındakı musiqi obrazı nəyi təsvir edir və bu mahnının xarakteri haqqında nə deyə bilərsiniz?*** – verilə bilər.

Bu mahnıda bizə doğma olan Şuşamızın xoşbəxt və toylu-büsatlı günlərinin, onun gözəl təbiətinin təsvir olunduğu şagirdlərin diqqətinə çatdırılır, Şuşanın coğrafi və strateji mövqeyi haqqında danışılır.

Bu əsər ətrafında müzakirə aşağıdakı sualların köməyi ilə aparılır:

– Uşaqlar, bu mahnının xarakteri necədir?

– Mahnının melodiyası çətin, yoxsa asan qavranılır?

**3**

Bundan sonra "Qubanın ağ alması" Azərbaycan xalq mahnısı notla ifa olunur və ölkəmizdə məkan və yer adları ilə əlaqədar mahnılar barədə məlumat verilir.

MÖVZU 5

**AZƏRBAYCAN MAHNILARINDA MƏKAN OBRAZI**



*Seyid Şuşinski* — *Xan Şuşinski* — *Hacıbaba Hüseynov* — *Zeynəb Xanlarova* — *Arif Babayev*

1

Mahnı xalqın ən çox sevdiyi musiqi janrıdır. Mahnılarda xalqın zəngin mənəvi aləmi, arzu və ümidləri əks olunur. Xalq mahnıları musiqi ifaçıları tərəfindən yaradılır, ağızdan-ağıza keçərək yayılır, xalqın yaddaşına əbədi həkk olunur. Bəstəkar mahnılarını bəstəkarlar bəstələyirlər.

Mahnılar müxtəlif mövzuları əhatə edir. Onların arasında məkan, yer mövzusunda olan mahnılar üstünlük təşkil edir. Belə mahnılarda təsvir edilən məkanın iqlimi, maddi-mədəni irsi, təbii sərvətləri, adət-ənənələri, fauna və florası tərənnüm edilir.

*Musiqi dinləyək*
**"Şuşanın dağları"**
*Musiqisi və sözləri Xan Şuşinskinindir.*

2



*Cıdır düzü*

Xan Şuşinskinin "Şuşanın dağları" mahnısını dinlədikcə zəngin və şanlı tarixi keçmişə malik qədim Şuşamızın uca dağları, yaşıl meşələri, bir sözlə, Qarabağ təbiətinin bütün gözəlliklərini özündə əks etdirən məkan göz önündə canlanır.

1992-ci il mayın 8-də Ermənistan işğalçı qüvvələrinin zəbt etdiyi Şuşa şəhəri – 28 il 6 ay sonra, 2020-ci ilin 8 noyabrında işğaldan azad olundu.

"Naxçıvan", "Mən gedirəm Zəngilana", "Qubanın ağ alması", "Dağıstan dağ yeridir", "Tiflisin yolları", "Qarabağın yollarına düşəydim", "Aranda qaldım", "Qarabağda bir dənəsən", "Şuşanın ceyranı" və s. mahnılar da vətənimizin müxtəlif bölgələrinə həsr edilmişdir.

14

### DİFERENSİAL TƏLİM

"Şuşanın dağları" mahnısının melodiyasını oxuyur.

1. "Şuşanın dağları" mahnısının ritmini tutur.
2. Mahnıya uyğun şəkil çəkir.

LAYİHƏ

“Xalq və professional mahnı yaradıcılığında yer, şəhər, kəndlərimiz haqqında yaradılmış mahnılar” mövzusunda müzakirə təşkil olunur.

Nəticə olaraq şagirdlərə məlum olur ki, Azərbaycan milli mahnı yaradıcılığında vətənpərvərlik, flora, fauna və digər mövzularla bərabər, eyni zamanda məkan, yer, kənd, şəhərlərə aid mahnılar da vardır.


MÖVZU 5

*Notla oxuyaq*

**QUBANIN AĞ ALMASI**
*(Azərbaycan xalq mahnısı)*

Azərbaycan bəstəkarları da şəhər və kəndlərimizə çoxlu sayda mahnılar həsr ediblər. Rauf Hacıyevin “Azərbaycan”, Tofiq Quliyevin “Bakı”, “Naxçıvan”, Səid Rüstəmovun “Sumqayıt”, Telman Hacıyevin “Gəncə”, Oqtay Rəcəbovun “Gəncə” və “Şuşa”, Vasif Adıgözəlovun “Şuşam, layla” və s. mahnılar məkan mövzusundadır.

3

*Yeni mahnı öyrənək*

**SUMQAYIT**

*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Nəsib Cəfəroğlunundur.*

I
Canlanır hər qarış çöl Sumqayıtda,
Xariqələr yaradır el Sumqayıtda!
Boy atır zavodlar, səslənir zəfər,
Axır bol metaldan sel Sumqayıtda.

II
Nə gözəl şəhərdir, xoşdur baxışı,
Bakıya qardaşdır, durub yanaşı.
Şöhrəti, qüdrəti dillərdə dastan,
Onunla fəxr edir mərd Azərbaycan.

***Nəqərat:***
Canlanır hər qarış çöl Sumqayıtda,
Xariqələr yaradır el Sumqayıtda! (2)

Marş tempində olan “Sumqayıt” mahnısını dinlədikcə insanın təsəvvüründə nəhəng sənaye şəhərimiz canlanır. Onun günbəgün artan sənaye obyektləri, park və xiyabanları, zəhmətkeş insanları göz önünə gəlir.

4

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Xalq və bəstəkar mahnıları bir-birindən nə ilə fərqlənir?
2. Şəhər və kəndlərimizə həsr olunmuş hansı xalq və bəstəkar mahnılarını tanıyırsınız?
3. 44 günlük müharibə və Zəfər musiqimizdə necə əks olunub? Hansı zəfər nəğmələrini eşitmisiniz?

15

## YARADICI TƏTBİQETMƏ

4

Bəstəkar Səid Rüstəmovun şair Nəsib Cəfəroğlunun sözlərinə bəstələdiyi “Sumqayıt” mahnısı öyrədilir.

***Tapşırıq 1.*** “Şuşanın dağları” mahnısının ritmini əl çalmaqla tutun.

***Tapşırıq 2.*** Mahnının mətnindəki təsvirlərə uyğun Şuşa şəhərinin obrazını yaradın.

***Mahnının müəllifləri ilə tanışlıq iki cür ola bilər:***
1. Əyani vəsaitlərdən istifadə etməklə müəllimin şərhi şəklində.
2. Şagirdlər fərdi şəkildə.

### MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Şuşanın dağları” mahnısının xarakteri necədir?**
a) qəmli ☐ b) şən ☐ c) təntənəli ☐

**2. “Sumqayıt” mahnısının bəstəkarı kimdir?**
a) Q.Qarayev ☐ b) A.Rzayeva ☐ c) S.Rüstəmov ☐



LAYİHƏ

# 6. MUSİQİ OBRAZLARI RUS VƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir.
2. Fərdi, qrup və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.

**Mövzunun öyrənilməsində beyin həmləsi, müzakirə və müqayisə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Rus bəstəkarı N.A.Rimski-Korsakovun "Şəhrizad" simfonik süitasından dəniz obrazı təsvir edilən hissə dinlənilir və bu əsərdən bir parça notla ifa edilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu əsərdə hansı musiqi obrazını gözünüzün önünə gətirirsiniz?"*** – verilə bilər.

Bundan sonra müəllim şagirdlərə belə suallarla müraciət edə bilər:

– Eşitdiyiniz musiqi nümunələrinin melodiyası rus xalqının, yoxsa başqa ölkə xalqlarının xalq musiqisi intonasiyalarına bənzəyir?

– "Şəhrizad" obrazı hansı xalqın nağıllarından götürülüb?

Şagirdlər müəllimin köməyi ilə "Şəhrizad" obrazının ərəb xalq nağılları olan "Min bir gecə"dən götürüldüyünü və buna görə də musiqinin Şərq musiqi intonasiyalarına yaxın olduğunu aydınlaşdırırlar.

**3**

Bundan sonra Azərbaycan bəstəkarı Qara Qarayevin Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması əsasında yazdığı "Leyli və Məcnun" simfonik poemasından köməkçi mövzu səsləndirilir və notla ifa olunur.

MÖVZU 6

**MUSİQİ OBRAZLARI AZƏRBAYCAN VƏ RUS BƏSTƏKARLARININ YARADICILIĞINDA**

1

Bəstəkar Qara Qarayev Nizami Gəncəvinin "Leyli və Məcnun" əsəri əsasında eyniadlı simfonik poemasını yazmışdır. Bu poemada Leyli və Məcnun obrazları musiqi ifadə vasitələrinin köməyi ilə təcəssümünü tapır. Poemada musiqi mövzuları gah gərginləşir, gah da lirik xarakter alır. Əsərdə üç əsas mövzu var: birinci mövzu əsərin müqəddiməsində gərgin vəziyyəti canlandırır, ikinci və əsas mövzu coşqun məhəbbəti göstərir. Üçüncü mövzu köməkçi partiyadır və insan idealının ifadəsidir.

2



***"Leyli və Məcnun" simfonik poemasından***

3

*Musiqi dinləyək*
**Qara Qarayev.**
*"Leyli və Məcnun" simfonik poemasından köməkçi mövzu*

**BUNU DA BİLİN**

Süita ümumi bədii məzmun və proqram cəhətdən eyni olan bir neçə müstəqil hissədən ibarət musiqi əsəridir. Süita termini musiqiyə XVII əsrdə fransız bəstəkarları tərəfindən gətirilmişdir.

**16**

## DİFERENSİAL TƏLİM

N.A.Rimski-Korsakovun "Şəhrizad" süitasından melodiyanı notla və notsuz oxuyur və Qara Qarayevin "Leyli və Məcnun" simfonik poemasından parçaları notla oxuyur.

1. "Şəhrizad" süitasından musiqinin ritmini tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

Dinlənilmiş musiqi nümunələri ətrafında fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Belə nəticəyə gəlinir ki, bəstəkarlar hansısa bir roman, yaxud poema əsasında musiqi əsərləri yaradır və bu əsərlərdəki obrazları musiqi obrazına çevirirlər.


MÖVZU 6

*Mahnını yada salaq və oxuyaq*
**Qara Qarayev.**
*"Xəzər neftçiləri haqqında dastan" sənədli filminə yazılmış musiqidən*

**GƏNCLİK MAHNISI**
*Musiqisi Qara Qarayevin,*
*sözləri Yevgeni Dolmatovskinindir.*

I
Dalğalı Xəzərdə biz saldıq
İlk qəhrəman bir şəhər.
Bu şəhərdən, bu yerdən
Görməyib heç bəşər.

***Nəqərat:***
Bir vüqarla, iftixarla
Durur şöhrət adası.
Buruqların dalğalarla
Qovğası var, qovğası.

II
Hər yandan gur dalğa, bax,
Hücum çəkir həm gecə, həm gündüz
Qardaşlıq və dostluğa
Bata bilməz dəniz.

***Nəqərat:***

***Tahir Salahov***
***"Növbədən qayıdan neftçilər"***

**SUAL VƏ TAPŞIRIQLAR**
1. Nikolay Rimski-Korsakovun "Min bir gecə" ərəb nağıllarının motivləri əsasında yazdığı süita necə adlanır?
2. Qara Qarayevin "Leyli və Məcnun" simfonik poemasında və "Şəhrizad" simfonik süitasında təbiət və insan obrazları musiqi ifadə vasitələrinin köməyi ilə necə işlənib?
3. "Gənclik mahnısı"nda dalğalı dəniz obrazı necə işlənmişdir?

18

## YARADICI TƏTBİQETMƏ

**4** Qara Qarayevin şair Yevgeni Dolmatovskinin sözlərinə bəstələdiyi "Gənclik mahnısı" öyrədilir. Mahnının lirik xarakterli, vals tempində olduğu aydınlaşdırılır.

***Tapşırıq:*** Qara Qarayevin "Leyli və Məcnun" simfonik poemasının 3 əsas mövzusu haqqında şifahi təqdimat hazırlayın.

***Mahnının müəllifi ilə tanışlıq iki cür ola bilər:***
1. Əyani vəsaitlərdən istifadə etməklə müəllimin şərhi şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Şəhrizad" simfonik süitasının müəllifi kimdir?**
a) P.İ.Çaykovski ☐ b) M.P.Musorqski ☐ c) N.A.Rimski-Korsakov ☐

**2. "Leyli və Məcnun" simfonik poemasını kim yazmışdır?**
a) A.Məlikov ☐ b) F.Əmirov ☐ c) Q.Qarayev ☐



LAYİHƏ

# 7-8. AZƏRBAYCAN XALQ RƏQSLƏRİNDƏ MUSİQİ OBRAZLARI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi folklor nümunələrinə dair biliklərini izah edir.
2. Fərdi, qrup və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.

**Mövzunun öyrədilməsində klaster, Venn diaqramı, müzakirə və müqayisə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

"Qaytağı" Azərbaycan xalq rəqsi səsləndirilir. Azərbaycan xalq rəqslərinin məzmununa görə təsnifatı klaster üsulu ilə lövhəyə asılır. Bunun ardınca "Zorxana" adlı Azərbaycan xalq rəqsi səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Səslənən bu iki rəqsdə hansı musiqi obrazı əks olunmuşdur?"*** – verilə bilər. Müəllimin köməyi ilə şagirdlər müəyyənləşdirirlər ki, hər iki rəqsin əhvali-ruhiyyəsində cəsarətlik, mübarizlik, cəld temp özünü göstərir.

Müəllim sinfə bu suallarla müraciət edə bilər:

– "Qaytağı" rəqsinin təranələri altında, əsasən, kimlər rəqs edir?

– "Zorxana" rəqsinin adı haradan götürülmüşdür?

**3**

Bundan sonra "Darçını" Azərbaycan xalq rəqsi və Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettasından "Məşədi İbadla Rüstəm bəyin dueti" səsləndirilir və şagirdlər tərəfindən Venn diaqramı ilə bu iki musiqi nümunəsinin oxşar və fərqli cəhətləri aydınlaşdırılır.


MÖVZU 7-8

AZƏRBAYCAN XALQ RƏQSLƏRİNDƏ MUSİQİ OBRAZLARI

Azərbaycan xalq rəqsləri məzmununa görə belə təsnif edilir:



*"Cəngi" rəqsi*

*"Xançobanı" rəqsi*

*"Uzundərə" rəqsi*

20

## DİFERENSİAL TƏLİM

Rəqsləri bir-birindən fərqləndirir.
Rəqslərin xarakterləri haqqında fikir söyləyir.

1. Rəqslərin ritminə uyğun əl çalır.
2. Rəqsin xarakterinə uyğun şəkil çəkir.

LAYİHƏ

Rəqslərin xarakterləri haqqında fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Şagirdlər nəticə olaraq belə bir fikrə gəlirlər ki, hər bir xalqın özünəməxsus xalq rəqsləri olduğu kimi, Azərbaycan xalqının da qədim kökləri olan müxtəlif məzmunlu və xarakterli xalq rəqsləri mövcuddur. Bu rəqslərin hər birində xalqın xüsusiyyətlərini nümayiş etdirən musiqi obrazları vardır.


MÖVZU 7-8

İki musiqi əsərinin oxşar və fərqli cəhətləri



Üzeyir Hacıbəyli “O olmasın, bu olsun” operettasında “Uzundərə” rəqsindən “Məşədi İbadın mahnısı”nda istifadə etmişdir.

*Mahnını yada salaq və oxuyaq*

**ÇAL-OYNA**
*(Azərbaycan xalq mahnı-rəqsi)*

I
Dost bağında açılıb güllər,
Sarılıb güllərə sarı bülbüllər.
Qızlar düzüb telinə güllər,
Gülürlər nazlana-nazlana.

II
Dost bağında bitər alçalar,
Ağ çiçəkləyər, yetər alçalar.
Toylarda qayda belədir,
Oğlan oxuyar, qızlar əl çalar.

*Nəqərat:*
Mehribanım, mehriban, dur oyna, çal-oyna.
Yaxşı oğlan, qəşəng qız, çal-oyna.
Gözəl oğlan, gözəl qız, çal-oyna.

“Çal-oyna” mahnı-rəqsdir. Çünki eyni zamanda həm oxunur, həm də rəqslə müşayiət edilir.

SUAL VƏ TAPŞIRIQLAR

1. Hansı məzmunlu xalq rəqsləri mövcuddur?
2. Üzeyir Hacıbəylinin hansı operettasında “Darçını” və “Uzundərə” rəqslərindən istifadə olunub?
3. “Məşədi İbad və Rüstəm bəyin dueti” ilə “Darçını” xalq rəqsinin oxşar cəhəti nədir?
4. Tanıdığınız rəqsləri Azərbaycan xalq rəqsləri sxeminə uyğun qruplaşdırın.

22

3

4

## YARADICI TƏTBİQETMƏ

4

Azərbaycan xalq mahnı-rəqsi “Çal-oyna” sözləri ilə birlikdə yada salınaraq ifa edilir. Mahnı-rəqsin xarakteri, tempi, musiqi obrazı müəyyənləşdirilir.

***Tapşırıq:*** Azərbaycan xalq rəqsləri məzmununa görə necə təsnif edilir?

***Mahnı ilə tanışlıq müxtəlif cür ola bilər:***

1. Müəllim tərəfindən şifahi təqdimat şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Qaytağı” rəqsinin xarakteri necədir?**

a) marş ☐  b) cəld ☐  c) qəmli ☐

**2. “Çal-oyna” Azərbaycan xalq musiqisi hansı janra aiddir?**

a) rəqs ☐  b) mahnı ☐  c) mahnı-rəqs ☐

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ



LAYİHƏ

# 9-10. XALQ VƏ BƏSTƏKAR MAHNILARINDA LAYLA XARAKTERİ

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.
2. Mahnının melodiyasını notla və sözləri ilə oxuyur.

**Mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

MÖVZU 9-10

**XALQ VƏ BƏSTƏKAR MAHNILARINDA LAYLA XARAKTERİ**



***Sara Manafova.***
***"Yeni həyata"***

Laylalar Azərbaycan xalq mahnı yaradıcılığının ən qədim janrlarındandır. Layla janrı bir çox dünya xalqlarının musiqi folklorunda mövcuddur. Laylaların həzin təranələri körpəni yuxuya verir. Layla deyən ana körpəsinin qanına xalqın əsrlərdən gələn sevgisini, adət-ənənəsini, səmimiyyətini hopdurur.

Laylaların meydana gəlməsi tarixən xalqların məişət və ailə ənənələri ilə bağlı olmuşdur. Bir qayda olaraq, laylalar qadınlar (analar, nənələr) tərəfindən oxunmuşdur. Anaların körpələrinə oxuduqları mahnılara ninnilər, oxşamalar da aiddir.

*Musiqi dinləyək*
**Mixail İppolitov-İvanov.**
*"Türk fraqmentləri" süitasından "Ninni"*
Bəstəkar Mixail İppolitov-İvanov "Türk fraqmentləri" adlı simfonik əsərində bir neçə Azərbaycan musiqi nümunəsindən, o cümlədən "Ninni"dən istifadə etmişdir.



***Altay Hacıyev.***
***"Keçmişdən səhifələr. Layla"***

23

**1**

Fikrət Əmirovun "Sevil" operasından "Layla" və Zakir Bağırovun "Aygün" filminə yazdığı musiqidən "Ana laylası" səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz musiqi nümunəsində siz hansı obrazı təsəvvürünüzə gətirirsiniz?"*** – verilə bilər.

Dinlənilən musiqi nümunələrində balasına layla deyən ana obrazının təsvir olunduğu şagirdlər tərəfindən müəyyənləşdirilir.

**3**

Bəstəkar Mixail İppolitov-İvanovun "Türk fraqmentləri" süitasından ninni dinlənilir.

Şagirdlər dinlədikləri və notla oxuduqları musiqi nümunələrini müqayisə edirlər.

## DİFERENSİAL TƏLİM

Fikrət Əmirovun "Sevil" operasından "Layla"nın və Oqtay Zülfüqarovun "Ana laylası" mahnısının melodiyasını oxuyur.

1. Dinlədiyi və notla oxuduğu laylaların ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

Dinlənilmiş və notla ifa olunmuş musiqi nümunələri ətrafında fikir mübadiləsi aparılır.

Nəticədə şagirdlərə məlum olur ki, bütün laylalar anaların öz balalarını yuxuya vermək üçün oxuduqları mahnılardır. Adətən, bu musiqi nümunələri xaraktercə sakit olurlar. Ona görə də belə musiqi dinlənildikdə körpəsini yuxuya vermək istəyən bir ananın obrazı təsəvvürümüzə gəlir. Məlum olur ki, bütün dünyada bəstəkarların yaratdıqları laylaların xarakteri eyni olur.

MÖVZU 9-10

2

*Musiqi dinləyək*
**Musiqisi Zakir Bağırovun, sözləri Səməd Vurğunundur.**
*"Layla"*

Bu mahnı Səməd Vurğunun eyniadlı poeması əsasında çəkilmiş "Aygün" bədii televiziya filmindəndir. Filmdə ana obrazını aktrisa Nəcibə Məlikova canlandırmışdır. Bu layla kədərli layladır. Laylada obrazın əhvali-ruhiyyəsi öz əksini tapmışdır. Filmin bəstəkarı Zakir Bağırovdur.

4

*Yeni mahnı öyrənək*

**LAYLA**

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Nəbi Xəzrinindir.*



I
Gecə keçər, üzün gülər,
Anan qurban, canım qurban!
Səhər gələr, atan gələr,
Anan qurban, körpə balam!
Layla, layla, yat, mənim əzizim! 2 |
Yat, yat!

II
Arzun coşsun, dəniz olsun,
Anan qurban, canım qurban!
Bəxtin sənin səhər kimi,
Təmiz olsun, anan qurban!
Layla, layla, yat, mənim əzizim! 2 |
Yat, yat!

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Laylalar insanda hansı əhvali-ruhiyyəni yaradır?
2. "Aygün" bədii televiziya filmində ananın kədəri oxuduğu laylada hansı sözlərlə ifadə olunur?
3. "Bəstəkar yaradıcılığında layla" mövzusunda danışın.

25

## YARADICI TƏTBİQETMƏ

4

Bəstəkar Fikrət Əmirovun şair Nəbi Xəzrinin sözlərinə bəstələdiyi "Layla" mahnısı öyrədilir. Mahnının ifa tempi, xanə ölçüsü, tonallığı təyin edilir.

***Tapşırıq 1.*** Mahnının ritmini əl çalmaqla tutun.
***Tapşırıq 2.*** Mahnının xarakteri haqqında fikir söyləyin.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Əyani vəsaitlərdən istifadə etməklə müəllimin şifahi təqdimatı şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. Laylaların xarakteri necə olur?**
a) şən ☐ b) mülayim ☐ c) qəmli ☐

**2. Fikrət Əmirovun "Layla" mahnısı hansı xalq mahnı janrı növünə aiddir?**
a) ninni ☐ b) layla ☐ c) oxşama ☐

LAYİHƏ

## 11. PROQRAMLI MUSİQİ VƏ MUSİQİ OBRAZI

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.
2. Musiqi əsərlərini emosional cəhətdən dərk etdiyini nümayiş etdirir.
3. Fərdi, qrup və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə, müzakirə kimi iş üsullarından istifadə olunur.**

1

Xalq artisti, bəstəkar Cövdət Hacıyevin "Musiqi şəkilləri" silsiləsindən fortepiano aləti üçün yazdığı "Marş" pyesi səsləndirilir.

2

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz Cövdət Hacıyevin fortepiano üçün yazdığı "Marş" pyesinin xarakteri necədir və bu musiqidə hansı obraz təsvir oluna bilər?"*** – verilə bilər.

Məktəblilər bu suala müxtəlif cavablar verirlər. Sualı daha da aydınlaşdırmaq üçün müəllim şagirdlərə köməkçi suallarla müraciət edir:

– Dinlədiyiniz fortepiano əsərinin təranələri altında dəqiq addımlamaq, yoxsa rəqs etmək olar?

– Bu musiqi əsgərlərin, yoxsa məktəblilərin marşını xatırladır?

Bütün cavablar ümumiləşdirilir və belə qənaətə gəlinir ki, bəstəkar musiqidə insanların dəqiq addımlarla ritmik hərəkətini təsvir etmək istəyib.

MÖVZU 11

**PROQRAMLI MUSİQİ VƏ MUSİQİ OBRAZI**

1



*Cövdət Hacıyev*

Bəstəkar Cövdət Hacıyev simfonik orkestr üçün simfoniyaların, "Vətən" operasının (Qara Qarayev ilə birgə bəstələdiyi), "Sülh uğrunda" simfonik poemanın, kamera-instrumental və fortepiano üçün əsərlərin, xor əsərlərinin müəllifidir. Bəstəkar üçün proqramlı, yəni əvvəlcədən adı məlum olan "Musiqi lövhələri" adlı fortepiano pyesləri silsiləsini yaratmışdır. Bu fortepiano silsiləsi səkkiz kiçikhəcmli pyesdən — "Gəzinti", "Əfsanə", "Zarafat", "Nağıl", "Etüd", "Marş", "Lirik rəqs", "Epiloq"dan ibarətdir.

***Musiqi dinləyək***
**Cövdət Hacıyev.**
*"Musiqi lövhələri" silsiləsindən "Marş"*

Dinlədiyimiz bu fortepiano pyesində cəsarətli addımlarla hərəkət edən məktəblilər təsvir edilir. Musiqinin dəqiq ritmi, sadə melodiyası, xalq musiqisinin intonasiyalarına oxşarlığı onun başa düşülməsini asanlaşdırır.

2



*Modest Musorqski*

Rus bəstəkarı Modest Musorqskinin yaradıcılığında da "Sərgidən şəkillər" adlı fortepiano pyesləri silsiləsi var. Rəssam Viktor Qartmanın sərgisində gördüyü təsviri incəsənət əsərlərindən ilhamlanan Modest Musorqski bu silsiləni yaratmışdır. Əsər proqramlıdır və on bir fortepiano pyesindən ibarətdir. "Sərgidən şəkillər" silsiləsində on bir təsviri sənət nümunəsindəki obraz öz musiqi təsvirini tapmışdır.



26

## DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqi nümunələrindən kiçik parçaları notla oxuyur.
Musiqi haqqında fikrini izah edir.

1. Dinlədiyi musiqi nümunələrinə ritmik müşayiət yaradır.
2. Mövzuya uyğun şəkillər çəkir.



LAYİHƏ

Azərbaycan və dünya bəstəkarlarının yaradıcılığında hər bir əsərə uyğun musiqi obrazının olması haqqında fikir mübadiləsi və müzakirəsi aparılır.

Belə nəticəyə gəlinir ki, dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələrinin əksəriyyətinin yaradıcılığında proqramlı nümunələrə rast gəlinir. Əsərin adının əvvəlcədən məlum olması uyğun obrazların təsəvvürümüzdə canlanmasını asanlaşdırır.


MÖVZU 11

*Musiqi dinləyək*
**Modest Musorqski.**
*"Sərgidən şəkillər" silsiləsindən "Küpəgirən qarı"*

**BUNU DA BİLİN**

Modest Musorqski "Sərgidən şəkillər" silsiləsini cəmi üç həftəyə yazdığına baxmayaraq, əsər bəstəkarın ölümündən düz beş il sonra nəşr edilib və səhnələşdirilib.

2

*Yeni mahnı öyrənək*

**VƏTƏN**
*Musiqisi Səid Rüstəmovun, sözləri Süleyman Rüstəmindir.*

**I**
Ey vətən! Torpağın əzizdir mənə,
Mən səndə tapmışam səadətimi.
Könüldən mahnılar qoşmuşam sənə,
Çevirib bayrağa məhəbbətimi.

**II**
Gözümü dünyada açanda ilkin
Anamı görmüşəm, səni görmüşəm.
Əhdinə vəfalı bir oğul təkin
Döyünən qəlbimi sənə vermişəm.

***Nəqərat:***
Şöhrətim ey vətən, şanım ey vətən,
Sən mənim adımı ellərə yaydın.
Ürəyim ey vətən, canım ey vətən,
Mən şair olmazdım, sən olmasaydın.

Mahnı marş tempində səslənir. Mahnıda doğma Vətənimiz Azərbaycanın obrazı təntənəli xarakterli musiqi ilə öz əksini tapır.

4

**SUAL VƏ TAPŞIRIQLAR**
1. Proqramlı musiqi əsəri nədir?
2. Cövdət Hacıyevin "Musiqi lövhələri" fortepiano silsiləsi neçə pyesdən ibarətdir?
3. Modest Musorqskinin fortepiano silsiləsinin adı nədir?
4. "Vətən" mahnısını dinləyin. Vətənpərvərlik mahnılarının nə üçün əsasən marş tempində yazıldığını izah edin.

27

## YARADICI TƏTBİQETMƏ

4

Musiqisi və sözləri S.Fərziyevaya aid olan "Qar mahnısı" öyrədilir, onun xarakteri, tempi, ritmi, nəyə həsr olunduğu aydınlaşdırılır.

***Tapşırıq 1.*** Proqramlı əsərlər haqqında bildiklərinizi danışın.
***Tapşırıq 2.*** Marş janrı haqqında fikir söyləyin.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Əyani vəsaitlərdən istifadə etməklə müəllimin şifahi təqdimatı şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Qar mahnısı"nın bəstəkarı kimdir?**
a) A.Rzayeva ☐ b) M.Mirzəyev ☐ c) S.Fərziyeva ☐

**2. "Küpəgirən qarı" fortepiano pyesini kim yazıb?**
a) S.Raxmaninov ☐ b) F.Əmirov ☐ c) M.P.Musorqski ☐



LAYİHƏ

# 12. MİNİATÜR VƏ MUSİQİ OBRAZI

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir.
2. Dinlədiyi musiqi əsəri əsasında yaranan təəssüratını şifahi ifadə edir.
3. Fərdi və kollektiv tərkibində mahnı oxuyur.

**Bu mövzunun öyrənilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

İncəsənət əsərlərində geniş yayılmış "miniatür" haqqında məlumat verildikdən sonra Azərbaycan bəstəkarı Fikrət Əmirovun "12 miniatür" və rus bəstəkarı Pyotr Çaykovskinin "İlin fəsilləri" fortepiano pyesləri silsilələrindən "Barkarola" dinlənilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu iki musiqi nümunəsi arasında hansı oxşar və fərqli cəhətlər vardır?"*** – verilə bilər.

Şagirdlər tədqiqat sualına müxtəlif cavablar verirlər və incəsənətdə, irihəcmli əsərlər kimi, həm də kiçikhəcmli "miniatür" adlanan nümunələr də vardır qənaətinə gəlirlər.

**3**

Bundan sonra rəssamlıqda geniş yayılmış miniatür janrına aid Azərbaycan rəssamlarından Abdulla Ələkbərovun və Arif Hüseynovun bir neçə əsəri şagirdlərə nümayiş etdirilir, həm də Pyotr Çaykovskinin "İlin fəsilləri" fortepiano pyesləri silsiləsindən "Barkarola"dan bir parça notla ifa olunur.

MÖVZU 12

**MİNİATÜR VƏ MUSİQİ OBRAZI**

1



*Arif Hüseynov.*
*"Ağ atlı oğlan"*

Miniatür kiçikhəcmli sənət əsərlərinə deyilir və bu janr həm musiqidə, həm də təsviri incəsənətdə öz tətbiqini tapıb.

Bəstəkar Fikrət Əmirov bu janrda "12 miniatür" adlanan fortepiano pyesləri silsiləsi yaratmışdır. Bu proqramlı silsilədə hər bir pyesin öz adı var. Onların adları belədir: "Ballada", "Aşıqsayağı", "Noktürn", "Yumoreska", "Lirik rəqs", "Ovda", "Layla", "Vals", "Barkarola", "Tokkata", "Elegiya", "Marş".

"Barkarola" italyan sözü olub, "Qayıqçının mahnısı" deməkdir. Sanki axşamçağı balıqçı öz qayığında üzür və həzin bir mahnı oxuyur.

*Musiqi dinləyək*
**Fikrət Əmirov.**
*"12 miniatür" fortepiano pyesləri silsiləsindən "Barkarola"*

2



*Abdulla Ələkbərov.*
*"El bilir ki, sən mənimsən"*



*Abdulla Ələkbərov.*
*"Nəğməkar qız"*

28

## DİFERENSİAL TƏLİM

Musiqi və təsviri incəsənətdə "miniatür" janrı haqqında biliklərini izah edir.
Eyniadlı musiqi nümunələrini müqayisəli şəkildə təqdim edir.

1. Dinlədiyi musiqi nümunələrinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

Miniatür janrı ilə əlaqədar fikir mübadiləsi aparılır və mövzuya uyğun müzakirə təşkil olunur.

Belə nəticəyə gəlinir ki, dünya musiqi mədəniyyətində geniş yayılmış miniatür janrında Azərbaycan bəstəkarları və rəssamları da gözəl nümunələr yaratmışlar.

**MÖVZU 12**

Miniatür janrı rəssamlıq sənətində də geniş yayılmışdır. Rəssam Abdulla Ələkbərovun "Nəğməkar qız", "El bilir ki, sən mənimsən", Arif Hüseynovun "Ağ atlı oğlan" əsərləri və s. məhz bu janra aiddir.



*Pyotr Çaykovski*

"Barkarola" adlı fortepiano pyesi rus bəstəkarı Pyotr Çaykovskinin yaradıcılığında da var. P.Çaykovskinin "İlin fəsilləri" fortepiano pyesləri silsiləsində yaz, yay, payız və qış fəsillərinin hər birinə üç pyes bəstələnib.

***Musiqi dinləyək***

**Pyotr Çaykovski.**

*"İlin fəsilləri" fortepiano pyesləri silsiləsindən "Barkarola"*

***Yeni mahnı öyrənək***

**QAR**

*Musiqisi və sözləri*
*Səadət Fərziyevanındır.*

**I**

Bəyaz paltar geydi dağ,
təpə, meşələr.
Bəyaz örpək örtdü üstünə
çəmənlər.
Yollar buz bağladı, çaylar
pıçıldadı.
Söylədi: "Təzə il gəlir!"

***Nəqərat***
Bax qara, qara bax, yağır,
gətirir soraq.
Dekabrın son günü gələcək
bizə qonaq.

**II**

İlin fəsilləri gözəldir,
gözəldir.
Günəş, yağış, külək —
onların bəzəyidir.
Yaz sərin, yay isti,
payız isə küləkli.
Qış — boran, şaxta
gətirir.

***Nəqərat***
Bax qara, qara bax, yağır,
gətirir soraq.
Dekabrın son günü gələcək
bizə qonaq.

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Miniatür nə deməkdir?
2. "12 miniatür" fortepiano pyesləri silsiləsinə nə daxildir?
3. Qış haqqında yazılmış bir neçə mahnını xatırlayın. Bu mahnılarda musiqinin xarakteri necədir? "Musiqi notları və fəsillər" mövzusunda danışın.

29

3

4

## YARADICI TƏTBİQETMƏ

4

Bəstəkar Səid Rüstəmovun və Mirmehdi Seyidzadənin sözlərinə yazdığı "Qızıl payız" notla oxunur. Eyni zamanda mahnının xarakteri, onun xanə ölçüsü, tempi və ritmi aydınlaşdırılır.

***Tapşırıq:*** Pyotr Çaykovskinin "İlin fəsilləri" fortepiano pyesləri silsiləsində pyeslərin ardıcıllıq prinsipi necədir?

***Mahnı ilə tanışlıq müxtəlif cür ola bilər:***

1. Əyani vəsaitlərlə müəllimin şifahi şərhi şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. Kiçikhəcmli sənət əsərləri necə adlanır?**

a) sonata ☐ b) variasiya ☐ c) miniatür ☐

**2. "Qızıl payız"ın bəstəkarı kimdir?**

a) A.Dadaşov ☐ b) Ü.Hacıbəyli ☐ c) S.Rüstəmov ☐

## KEÇİLMİŞ MÖVZULARIN TƏKRARI

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

LAYİHƏ

## 15. QARA QARAYEVİN "YEDDİ GÖZƏL" BALETİNİN DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.

2. Bəstəkarın ritm, temp və dinamik nüanslardan müxtəlif variantlarda istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.

3. Fərdi və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.

**Mövzunun öyrədilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Böyük Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" baleti haqqında qısa məlumat verildikdən sonra bu əsərdən "Adajio" dinlənilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz "Adajio" musiqi nümunəsində kimin obrazı təsvir olunur?"*** – verilə bilər. Sonra tədqiqat sualının aydınlaşdırılması üçün aşağıdakı köməkçi suallar verilir:

– Dinlədiyiniz əsərin xarakteri necədir?

– Baletdəki əsas qadın obrazı kimdir?

**3**

Bundan sonra "Yeddi gözəl" baletindən "Gözəllər gözəli" musiqi parçası dinlənilir və onun melodiyasından bir hissə notla ifa olunur. Bütün bunlardan sonra baletdən "Vals" dinlənilir və onun rəqs xarakterli olduğu müəyyənləşdirilir.

MÖVZU 15

**QARA QARAYEVİN "YEDDİ GÖZƏL" BALETİNİN DRAMATURGİYASI**



*Nizami Gəncəvi*

Bəstəkar Qara Qarayevi dahi Nizaminin yaradıcılığı ilə birləşdirən onun "Yeddi gözəl" baleti və "Leyli və Məcnun" simfonik poeması olmuşdur. Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan beş poemadan birinin motivləri əsasında yazılan "Yeddi gözəl" baleti 1952-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulmuşdur. Tamaşanın rejissoru və baletmeysteri Pyotr Qusev, baletin səhnələşdirilməsində məsləhətçi Xalq artisti Qəmər Almaszadə olmuşdur.

1

Baletin qısa məzmunu belədir: Bəhram şah ov edərkən ovçu Mənzərin evinə gəlib çıxır. Elə bu vaxt şaha düşmənin hücum xəbəri çatır. Mənzər Bəhram şahla birlikdə döyüşə yollanır. Vəziri Bəhram şahı öldürmək üçün yollar axtarır. Mənzər şahı ölümdən xilas edir. Şah isə Mənzəri və onun silahdaşlarını zindana atır. Mənzərin bacısı Ayşə saraya gəlir. Şahdan xahiş edir ki, qardaşı Mənzəri və onun dostlarını azad etsin. Şah Ayşəni qətlə yetirir.



*"Yeddi gözəl" baletindən*

Mənzər və onun silahdaşları zindandan qaçırlar. Şahın adamları kəndlilərin zəmisinə od vurur. Xalq ayağa qalxır. Bəhram şah ölkədən qovulur.

2



*"Yeddi gözəl" baletindən "Adajio"*

*Musiqi dinləyək*

**Qara Qarayev.**

*"Yeddi gözəl" baletindən "Adajio"*

"Adajio"da Ayşənin xarakteri təsirli melodiyada öz əksini tapır. Ağır tempdə səslənən rəqsin melodik elementləri Ayşənin ölüm səhnəsinə qədər bir neçə dəfə yada salınır. Yəni bir növ ana xətti rolunu oynayır.

32

## DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqilər haqqında fikir söyləyir.
Baletdən musiqi parçalarını notla oxuyur.

1. Musiqiyə ritm tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

Dinlənilən musiqi nümunələrinin xarakteri, məzmunu ətrafında fikir mübadiləsi aparılır və mövzu ilə əlaqədar müzakirə təşkil olunur.

Nəticə olaraq şagirdlərə məlum olur ki, Nizaminin “Yeddi gözəl” poeması əsasında yaranmış Qara Qarayevin eyniadlı baletinin məzmunu və dramaturgiyası bir-birinə uyğundur.

MÖVZU 15

*Musiqi dinləyək*
**Qara Qarayev.**
*“Yeddi gözəl” baletindən “Gözəllər gözəli”*

Baletdə yeddi xalqın musiqisi əsasında yeddi gözəl obrazı yaradılmışdır: “Hind gözəli”, “Bizans gözəli”, “Xarəzm gözəli”, “Slavyan gözəli”, “Məğrib gözəli”, “Çin gözəli”, “Gözəllər gözəli”. Bu baletdə konsert pyesi kimi səslənən ritmik “Vals” dövrümüzün ən gözəl əsərlərindən hesab olunur.

*Musiqi dinləyək*
**Qara Qarayev.**
*“Yeddi gözəl” baletindən “Vals”*

3

*Yeni mahnı öyrənək*

**AZƏRBAYCANA GƏLSİN**

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Süleyman Rüstəmindir.*

I
Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin!
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin!

II
Payızında, qışında, baharında, yazında,
Dinir dostluq nəğməsi könüllərin sazında.
Sabaha addımlayan mərd oğlunda, qızında,
Qeyrət görmək istəyən Azərbaycana gəlsin!

III
Bağçaları, bağları zavalsızdır qış-bahar,
Məhəbbəti, şöhrəti dolaşır diyar-diyar.
Üçrəngli bayraq altda alnıaçıq, bəxtiyar
Millət görmək istəyən Azərbaycana gəlsin!



4

**SUAL VƏ TAPŞIRIQLAR**

1. “Yeddi gözəl” baletinin əsas obrazları hansılardır?
2. “Azərbaycana gəlsin” mahnısında yurdun gözəllikləri hansı musiqi ifadə vasitələri və sözlərlə təsvir edilir? Mahnını dinləyərkən təsəvvür etdikləriniz haqqında danışın.
3. “Yeddi gözəl” baleti haqqında şifahi təqdimat hazırlayın.

33

## YARADICI TƏTBİQETMƏ

4

Bəstəkar Tofiq Quliyevin şair Süleyman Rüstəmin sözlərinə yazdığı “Azərbaycana gəlsin” mahnısı öyrədilir. Eyni zamanda mahnının xarakteri, xanə ölçüsü, tempi, ritmi aydınlaşdırılır.

***Tapşırıq:*** Nizami Gəncəvinin “Xəmsə”si və ona daxil olan poemalar haqqında qısa təqdimat edin.

***Mahnı müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Əyani vəsaitlərdən istifadə etməklə müəllimin şifahi təqdimatı şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Yeddi gözəl” baleti kimin yaratdığı poema əsasında yazılmışdır?**
a) M.Füzuli ☐ b) N.Gəncəvi ☐ c) Anar ☐

**2. “Azərbaycana gəlsin” mahnısının bəstəkarı kimdir?**
a) F.Əmirov ☐ b) Q.Hüseynli ☐ c) T.Quliyev ☐



LAYİHƏ

# 16. ARİF MƏLİKOVUN "MƏHƏBBƏT ƏFSANƏSİ" BALETİNİN DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında bilikləri izah edir.

2. Bəstəkarın ritm, temp və dinamik nüanslardan müxtəlif variantlarda istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.

3. Fərdi və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.

**Bu mövzunun öyrədilməsində beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Arif Məlikovun böyük türk şairi, dramaturqu Nazim Hikmətin əsəri əsasında yazdığı "Məhəbbət əfsanəsi" baleti haqqında məlumat verildikdən sonra müəllim əsərdən "Təlxəklərin rəqsi" adlı musiqi nümunəsini səsləndirir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz musiqi nümunəsinin xarakteri haqqında nə deyə bilərsiniz?"*** – verilə bilər.

Musiqidə olan yumorluluq, dəqiq ritm və cəld temp şagirdlərin diqqətini cəlb edir. Şagirdlər tədqiqat sualına müxtəlif cavablar verirlər, lakin musiqidə olan yumorluluq onların diqqətindən yayınmır.

**2**

Bundan sonra "Məhəbbət əfsanəsi" baletindən "Türk qızlarının rəqsi"nin melodiyası notla oxunur və bundan əvvəl dinlənilən "Təlxəklərin rəqsi" ilə müqayisə edilir.

MÖVZU 16

**ARİF MƏLİKOVUN "MƏHƏBBƏT ƏFSANƏSİ" BALETİNİN DRAMATURGİYASI**



*Arif Məlikov*

Bəstəkar Arif Məlikov "Məhəbbət əfsanəsi" baletini türk şairi Nazim Hikmətin "Fərhad, Şirin, Məhmənə Banu və Dəmirdağın suyu" pyesi əsasında yaratmışdır. "Məhəbbət əfsanəsi" baletində "Hümayun", "Çahargah", "Segah", "Bayatı-Kürd" muğamlarından istifadə edilib.



*Nazim Hikmət*

1 Nazim Hikmət Fərhadın timsalında sevgisi uğrunda mübarizə etməyi bacaran bir surət yaradıb. Onun yaratdığı obrazda Vətənə və xalqa sevgi əks olunur. Baletin qısa məzmunu belədir: Fərhadın tikdiyi saray hazır olur. Hökmdar Məhmənə Banu və Şirin saraya baxmağa gəlirlər. Fərhad Şirini görür və onu sevir. Xalq quraqlıqdan əziyyət çəkdiyi üçün hökmdar Məhmənə Banu Fərhad ilə belə bir şərt kəsir: əgər Bisütun dağını yarıb susuz qalan xalqı suya qovuşdursa, onlara xeyir-dua verəcək. Xalq Fərhada böyük ümid bəsləyir. Əsərin sonunda Fərhad Bisütun dağını yarıb xalqın etimadını doğruldur.



***"Məhəbbət əfsanəsi" baletindən***

***Musiqi dinləyək***
**Arif Məlikov.**
*"Məhəbbət əfsanəsi" baletindən "Təlxəklərin rəqsi"*

34

## DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqi nümunəsinin melodiyasını notla və notsuz oxuyur.

Dinlənilən musiqi haqqında fikir söyləyir.

1. Musiqinin ritminə uyğun əl çalır.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

Dinlənilən və notla oxunmuş musiqi nümunələri ətrafında informasiya mübadiləsi aparılır və mövzuya uyğun müzakirə təşkil olunur.

Dinlənilmiş və notla oxunmuş musiqi nümunələrindən belə nəticəyə gəlmək olar ki, bəstəkar Arif Məlikov temp, ritm, parlaq melodiyalar vasitəsilə "Məhəbbət əfsanəsi" baletinin dramaturji xəttinin düzgün başa düşülməsinə şərait yaradır.



MÖVZU 16

*Notla oxuyaq və dinləyək*

**Türk qızlarının rəqsi**
**(II pərdə)**



2

*Yeni mahnı öyrənək*

**DOĞMA DİYAR**
*Musiqisi Ramiz Mirişlinin,*
*sözləri Məmməd Arazındır.*

I
İstəyi nur, arzusu nur,
Hər qayası Koroğludur.
Qəhrəmanlar nər oğludur
Bu torpağın, bu diyarın.

*Nəqərat:*
Nəğməlidir qışı, yazı,
Arpaçayı, Xan Arazı.
Taleyini Günəş yazıb
Bu torpağın, bu diyarın.

II
Uşaqları qızıl lalə,
Gülüşləri gur şəlalə,
Ağ evləri bir ağ lalə
Bu torpağın, bu diyarın.
*Nəqərat:*

III
Əhd-ilqara düz ellərdir,
Süfrəsi gen düzənlərdir.
Çiçək tacı gözəllərdir
Bu torpağın, bu diyarın.

3

**SUAL VƏ TAPŞIRIQLAR**

1. "Məhəbbət əfsanəsi" baletində bir neçə Azərbaycan muğamının intonasiyalarından istifadə olunub. Sizcə, bəstəkar bunu nə məqsədlə edib?
2. "Doğma diyar" mahnısında yurdun təbiəti necə tərənnüm edilir?
3. "Məhəbbət əfsanəsi" baleti haqqında şifahi təqdimat hazırlayın.

35

## YARADICI TƏTBİQETMƏ

3

Bəstəkarı Ramiz Mirişli və şair Məmməd Arazın sözlərinə yazdığı "Doğma diyar" mahnısı sözlərlə və notla ifa olunur. Şagirdlər mahnının xarakterini, ritmini, tempini müəyyənləşdirirlər.

***Tapşırıq:*** "Doğma diyar" mahnısının ritminə uyğun əl çalın.

***Ramiz Mirişlinin "Doğma diyar" mahnısı ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Məhəbbət əfsanəsi" baletinin bəstəkarı kimdir?**
a) F.Əmirov ☐ b) Q.Qarayev ☐ c) A.Məlikov ☐

**2. "Doğma diyar" mahnısının xarakteri necədir?**
a) təntənəli ☐ b) kədərli ☐ c) lirik ☐



LAYİHƏ

# 17. ORATORİYA VƏ DRAMATURGİYA

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.
2. Azərbaycan musiqi folklor nümunələrini melodik, ritmik, poetik xüsusiyyətlərinə görə təhlil edir.
3. Mahnını ikisəsli (üçsəsli) kollektiv şəklində oxuyur.

**Mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə tövsiyə olunur.**

**1**

Oratoriya janrı və onun yaranması ilə əlaqədar tarixi məlumatlar verildikdən sonra Xalq artisti, bəstəkar Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyasının VII hissəsindən bir parça dinlənilir.

**2**

Sonra Azərbaycan zərbi-muğamı olan "Qarabağ şikəstəsi"ndən bir parça notla ifa edilir.
Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu musiqi nümunələri xaraktercə bir-birindən necə fərqlənir?"*** – verilə bilər. Şagirdlər aydınlaşdırırlar ki, bəstəkar öz əsərində "Qarabağ şikəstəsi" adlı zərbi-muğamın melodiyasından istifadə etmişdir.
Müəllim bu iki əsərin mətni ilə musiqisi arasındakı uyğunluq haqqında məlumat verir.

MÖVZU 17

**ORATORİYA VƏ DRAMATURGİYA**



*Vasif Adıgözəlov*

Oratoriya — xor, solistlər və simfonik orkestr üçün nəzərdə tutulmuş irihəcmli musiqi əsəridir. "Oratoriya" sözünün latın dilindən tərcüməsi, "oro" danışıram, yalvarıram deməkdir. Oratoriya operadan səhnə hərəkətlərinin olmaması, kantatadan böyük ölçüsünə və şaxələnən süjet xəttinə malik olması ilə fərqlənir.

**1** Azərbaycanda oratoriya janrında Cahangir Cahangirov, Vasif Adıgözəlov, Ramiz Mustafayev, Oqtay Rəcəbov nümunəvi əsərlər yaradıblar. Cahangir Cahangirovun "Sabir", Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi", Oqtay Rəcəbovun "Heydər", Ramiz Mustafayevin "Hüseyn Cavid" oratoriyaları ölkəmizdə və bütün dünyada tanınmış əsərlərdəndir.

Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası yeddi hissədən ibarətdir. Oratoriya Qarabağa həsr olunmuş şeirlə başlayır. Əsərin sonuncu hissəsində bəstəkar "Qarabağ şikəstəsi" zərbi-muğamından bütünlüklə istifadə etmişdir.



*Simfonik orkestr, xor, solistlər*

**2** *Musiqi dinləyək*
**Musiqisi Vasif Adıgözəlovun, sözləri Teymur Elçinindir.**
*"Qarabağ şikəstəsi" oratoriyasının VII hissəsi*

Bu oratoriyada dinlənilən hissədən əlavə xor epizodları, vokal nümunələri və simfonik orkestrin ifasında musiqi parçaları da vardır.
Göründüyü kimi, musiqi və mətn arasında vəhdət oratoriyanın dramaturgiyasını tədricən inkişaf etdirir. Sonda təntənəli "Qarabağ şikəstəsi" xorun ifasında səslənir.

36

## DİFERENSİAL TƏLİM

Dinlənilən musiqi nümunəsinin melodiyasını notla və notsuz oxuyur.
Dinlənilmiş musiqiyə dair öz fikrini izah edir.

1. Dinlədiyi musiqinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkil çəkir.



LAYİHƏ

Dinlənilmiş və notla ifa edilmiş musiqi ətrafında müzakirə təşkil edilir və fikir mübadiləsi aparılır.

Belə nəticəyə gəlinir ki, dünya bəstəkarları, o cümlədən Azərbaycan bəstəkarları yazdıqları böyük əsərlərdə həm də öz xalqlarının folklor musiqi nümunələrindən istifadə edirlər. Bu, irihəcmli musiqi əsərlərinin dinləyicilər tərəfindən daha asan qavranılmasına səbəb olur.


MÖVZU 17

*Yeni mahnı öyrənək*

**LALƏLƏR**

*Musiqisi Telman Hacıyevin,*
*sözləri Aslan Aslanovundur.*

I

Yazın əvvəlində Gəncə çölündə,
Çıxıbdır yenə də düzə lalələr.
Yağışdan islanmış yarpaqlarını
Səriblər çəmənə, düzə lalələr...

***Nəqərat:***
Lalələr... lalələr...
Lalələr... lalələr...

II

Xəyalımdan nələr gəlib, nə keçər,
Yaz gələr, ellərə durnalar köçər.
Bulaqlar samovar, ağ daşlar şəkər,
Bənzəyir çəməndə közə, lalələr...

***Nəqərat:***
Lalələr... lalələr...
Lalələr... lalələr...

III

Meylim üzündəki qara xaldadır,
Hicranın əlacı ilk vüsaldadır.
Nə vaxdır Bakının gözü yoldadır,
Bir qonaq gələsiz bizə, lalələr...

***Nəqərat:***
Lalələr... lalələr...
Lalələr... lalələr...

3

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Oratoriya, opera və kantata janrlarının oxşar və fərqli cəhətləri hansılardır?
2. Azərbaycan bəstəkarlarından kimlər oratoriya janrında əsərlər yaradıb?
3. “Lalələr” mahnısının ən məşhur ifaçısı kim olub? Araşdırma aparın və bu ifaçı haqqında danışın. Necə düşünürsünüz mahnıda hər kuplet mövzunu necə tamamlayır?

37

## YARADICI TƏTBİQETMƏ

3

Bəstəkar Telman Hacıyevin Aslan Aslanovun sözlərinə yazdığı “Lalələr” mahnısı öyrədilir.

Şagirdlər mahnının xarakteri, ritmi, tempi ilə əlaqədar fikirlərini söyləyirlər.

***Tapşırıq 1.*** Oratoriya haqqında danışın.

***Tapşırıq 2.*** İrihəcmli musiqi əsərlərində folklor nümunələrinin istifadəsi haqqında qısa təqdimat edin.

***Mahnı müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Əyani vəsaitlərin köməyi ilə müəllimin şifahi şərhi.
2. Şagirdlər fərdi şəkildə.

**MÖVZU ÜZRƏ TESTLƏR**

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Qarabağ şikəstəsi” oratoriyasının bəstəkarı kimdir?**

a) F.Əmirov ☐ b) R.Mustafayev ☐ c) V.Adıgözəlov ☐

**2. “Lalələr” mahnısının ifası hansı fəsildə daha uyğundur?**

a) yaz ☐ b) yay ☐ c) payız ☐

LAYİHƏ

## 18. ƏŞRƏF ABBASOVUN “QARACA QIZ” BALETİNİN DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir.

2. Bəstəkarın ritm, temp və dinamik nüanslardan müxtəlif variantlarda istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.

3. Mahnını ikisəsli (üçsəsli) kollektiv tərkibində oxuyur.

**Mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

1

Bəstəkar Əşrəf Abbasov, yazıçı-dramaturq Süleyman Sani Axundov, libretto müəllifi Əfrasiyab Bədəlbəylinin birgə əməyinin məhsulu olan “Qaraca qız” baleti haqqında məlumat verildikdən sonra əsərdən “Qaraca qız və Ağcanın dueti” dinlənilir.

Tədqiqat sualı kimi ***“Dinlədiyiniz musiqi nümunəsinin xarakteri necədir?”*** – verilə bilər.

Şagirdlər müxtəlif cavablar səsləndirir və aydınlaşdırırlar ki, musiqi şən-zarafat xarakterlidir.



MÖVZU 18

ƏŞRƏF ABBASOVUN “QARACA QIZ” BALETİNİN DRAMATURGİYASI

Bəstəkar Əşrəf Abbasov “Qaraca qız” baletini Süleyman Sani Axundovun “Qorxulu nağıllar” povesti əsasında yazmışdır. Baletin librettosunu Əfrasiyab Bədəlbəyli yazmışdır.

“Qaraca qız” baleti uşaqlar üçün yazılmış ilk irihəcmli musiqi əsəridir.

*Əşrəf Abbasov*

*Süleyman Sani Axundov*

Əsərin məzmunu belədir: Qaraca qız kimsəsizdir. O, bağban Piri babanın daxmasında yaşayır. Piri baba onu nəvəsi kimi əzizləyir. Günlərin bir günü ağanın qızı Ağca həyətdə gəzərkən Qaraca qızı görür və onlar dostlaşırlar. Lakin Ağcanın zalım anası bu dostluğu qadağan edir. Ağca yalnız atasının köməyi ilə Qaraca qızla arabir görüşür. Bir gün ağaların məclisində Qaraca qızla Ağca qaraçı rəqsi edir. Bu xanımın xoşuna gəlmir və o Ağcanı cəzalandırır.

1 Qaraca qızla Ağcanın dostluğu Piri babanı da narahat edir. O, ağaların bu dostluğa münasibətini və onun nə ilə nəticələnəcəyini yaxşı bilir.

Bir gün Qaraca qızın sevimli rəfiqəsi Ağcanı ilan çalır. Qaraca qız onu xilas edərkən zəhərlənir. Ağca sağalır, Qaraca qız isə Piri babanın qucağında dünyasını dəyişir.

*Musiqi dinləyək*

**Əşrəf Abbasov.** *“Qaraca qız” baletindən “Qaraca qızla Ağcanın dueti”*

*“Qaraca qız” baletindən*

38

### DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqi haqqında fikir söyləyir.
Dinlədiyi melodiyanı notla və notsuz oxuyur.

1. Musiqinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkillər çəkir.

2

Şagirdlər aydınlaşdırırlar ki, Qaraca qızla Ağcanın duetindən olan melodiyalar arasında nə kimi fərqlilik var?

LAYİHƏ

Dinlənilmiş musiqi ətrafında fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Belə nəticəyə gəlinir ki, hər bir musiqi janrının, o cümlədən Əşrəf Abbasovun “Qaraca qız” baletinin özünün dramaturji xətti mövcuddur. Bəstəkar baletin dramaturgiyasına uyğun obrazlar yaratmaq üçün melodiya, ritm, temp, polifoniya, homofoniya, harmoniya və digər musiqi ifadə vasitələrindən istifadə etmişdir.


MÖVZU 18

“Qaraca qızla Ağcanın dueti” “Qaraca qız” hekayəsi əsasında yaradılmışdır. Lakin bir qədər ritmi dəyişilmiş şəkildə, zarafat xarakterində səslənir. 2

*Yeni mahnı öyrənək*

**ƏSGƏR QARDAŞLAR**

*Musiqisi Nailə Mirməmmədlinin,*
*sözləri Zəminə Xınalınındır.*

I

Mətin addımların döyüntüsündən
Lərzəyə düşübdür düşmən ordusu.
Əsgər qardaşların uca boyundan
Qorxuya düşübdür düşmən ordusu.

*Nəqərat:*
Geriyə yol yoxdur, yalnız irəli!
Açılan sabahlar gözləyir sizi.
Sevib-sevindirin siz qəlbimizi,
Yaşayın, var olun, əsgər qardaşlar!

Analar fəxr edir, bacılar sevir,
Sizin qədrinizi bütün el bilir.
Sevincdən xalqım da göz yaşın silir,
Sevinin, şad olun, əsgər qardaşlar!
Yaşayın, var olun, əsgər qardaşlar!

II

Ürək döyüntüsü, qəlb çırpıntısı,
Qaranlıq gecənin tez açılması,
Nurlu sabahların işıq saçması
Sizin əlinizdə, əsgər qardaşlar.

3

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Süleyman Sani Axundov “Qaraca qız” hekayəsində uşaqların taleyini hansı çalarlarla təsvir edib?
2. “Qaraca qız” baletində Ağca ilə Qaraca qız obrazlarını hansı musiqi janrı dostlaşdırır?
3. “Qaraca qız” baleti haqqında qısa şifahi təqdimat edin. Baletin ən maraqlı obrazları Qaraca qız və Ağcanın musiqi vasitəsilə ifadəsindən danışın.

39

## YARADICI TƏTBİQETMƏ

3

Nailə Mirməmmədli Zəminə Xınalının sözlərinə bəstələdiyi “Əsgər qardaşları” mahnısı YouTube üzərindən dinlənilir. Mahnının tempi, ritmi, xarakteri haqqında fikir mübadiləsi aparılır.

***Tapşırıq:*** Əsərin dramaturgiyasına uyğun obrazlar yaratmaq üçün istifadə edilən musiqi ifadə vasitələri haqqında qısa təqdimat edin.

***Mahnı müəllifi ilə əlaqədar tanışlıq müxtəlif cür aparıla bilər:***
1. Müəllim tərəfindən təqdimat şəklində.
2. Şagirdlər fərdi şəkildə.

### MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Qaraca qız” baletinin librettosunu kim yazmışdır?**

a) C.Cabbarlı ☐ b) S.Vurğun ☐ c) Ə.Bədəlbəyli ☐

**2. Oxuduğunuz ikisəsli melodiyanın xarakteri necədir?**

a) qəmli ☐ b) lirik ☐ c) təntənəli ☐

LAYİHƏ

# 19. MÜSLÜM MAQOMAYEVİN "ŞAH İSMAYIL" OPERASININ DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında biliklərini izah edir.
2. Mahnının melodiyasını fərdi və kollektiv tərkibində oxuyur.

**Bu mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

"Şah İsmayıl" operasının I pərdəsindən "Aslan şahın ariyası" səsləndirilir. Ariyanı ifa edən müğənninin səs tembri şagirdlərə aydınlaşdırılır.

**2**

Operanın qısa məzmunu şagirdlərə çatdırıldıqdan sonra ariyanın xarakteri ilə əlaqədar onların fikrini öyrənmək üçün belə bir tədqiqat sualı verilir: ***"Uşaqlar, "Aslan şahın ariyası"nın xarakteri necədir?"***

Şagirdlər müxtəlif fikirlər söyləyirlər və müəllimin köməyi ilə Aslan şahın səsinin bəm kişi səsi olduğu müəyyənləşdirilir.

**3**

Ərəblərin düşərgəsində Gülzarla Tacirin toyu. Əsərlərin bədii xarakteri təyin edilir. "Aslan şahın ariyası" ilə müqayisə edilir.

MÖVZU 19

**MÜSLÜM MAQOMAYEVİN "ŞAH İSMAYIL" OPERASININ DRAMATURGİYASI**

**1**



***Müslüm Maqomayev***

Bəstəkar Müslüm Maqomayev "Şah İsmayıl" operasını eyniadlı dastan əsasında yaratmışdır. Operanın ilk tamaşası rejissor Hüseyn Ərəblinskinin quruluşunda oynanılmışdır. "Şah İsmayıl" operası Müslüm Maqomayevin ilk iri həcmli əsəridir.

Operanın qısa məzmunu belədir: xain vəzir rəmmal vasitəsilə Aslan şaha xəbər çatdırır ki, oğlu onu öldürə bilər. Aslan şah xalq arasında şöhrət tapmış oğlu İsmayılın onun taxt-tacına sahib çıxacağından çox narahatdır. O, həyəcan içində məşhur ariyasını oxuyur. Aldığı xəbərdən narahat olan şah oğlunu uzaq ölkələrə, yeni torpaqlar fəth etməyə göndərir. Aslan şah düşünür ki, o, döyüşlərdə həlak olacaq və bununla da təhlükədən can qurtaracaq.

Səfərdə Şah İsmayıl ərəb qəbilələri ilə rastlaşır və qəbilə başçısının qızı Gülzara vurulur. Gülzarın atası İbn Tahir qızı Əbu Həmzəyə ərə verməyə hazırlaşır. Atası Gülzarı götürüb başqa yerə köçməyə qərar verir. Gülzarın axtarışına çıxan Şah İsmayıl Ərəbzəngi ilə rastlaşır və döyüşdə ona qalib gəlir. Lakin Ərəbzənginin qadın olduğunu bilir və onu bağışlayır.

**2**

***Musiqi dinləyək***
**Müslüm Maqomayev.**
*"Şah İsmayıl" operasının I pərdəsindən "Aslan şahın ariyası"*



***"Şah İsmayıl" operasından***

40

## DİFERENSİAL TƏLİM

Dueti notla sərbəst oxuyur.
Ariya haqqında öz fikrini söyləyir.

1. Dinlədiyi musiqinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

"Şah İsmayıl" operasından dinlənilmiş musiqi parçaları ilə əlaqədar fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Nəticədə şagirdlərə məlum olur ki, bəstəkarlar opera yaradarkən orijinal musiqi yazmaqla bərabər, eyni zamanda xalq musiqisindən də istifadə edirlər.

MÖVZU 19

*Musiqi dinləyək*

**Müslüm Maqomayev.**

*"Şah İsmayıl" operasından "Ərəblərin yeni düşərgəsində Gülzarla tacirin toyu"*

Şah İsmayıl döyüşlərdən qalibiyyətlə çıxır və Gülzarı da götürüb vətənə qayıdır. Hadisələr elə cərəyan edir ki, Aslan şah dünyasını dəyişir. Şah İsmayıl taxt-taca sahib olur.

3

*Yeni mahnı öyrənək*

**ŞİRİN DİL**

*Musiqisi Emin Sabitoğlunun,*
*sözləri Kərkük bayatılarıdır.*

I
Şirin dil, şirin dil,
Al bağrımı, şirin dil.
Nə deyirsə yad desin,
Öz dilimdi şirin dil.

***Nəqərat:***
Şirin düşər,
Zülf üzə şirin düşər.
Fərhad qaya çapanda
Yadına Şirin düşər.

II
Şirin dil, şirin dil,
Ana dilim, şirin dil.
Həm təbibdi, həm məlhəm
Şirin söhbət, şirin dil.

III
Şirin kimi, şirin kimi,
Gözəl sev Şirin kimi.
Sevən gənclər istərəm
Fərhadla Şirin kimi.



4

**SUAL VƏ TAPŞIRIQLAR**

1. "Şah İsmayıl" operasındakı obrazlar və operadakı hadisələr necə inkişaf edir?
2. Operada Şah İsmayılın taxt-taca sahib olmasına qədər gedən yol hansı musiqi ifadə vasitələri ilə müşayiət edilir?
2. Emin Sabitoğlunun "Şirin dil" mahnısında kərkük xalqının arzuları necə ifadə olunub?

41

## YARADICI TƏTBİQETMƏ

4

Bəstəkar Emin Sabitoğlunun Kərkük bayatılarına yazdığı "Şirin dil" mahnısı sözlərilə bərabər öyrədilir. Mahnının melodiyasının xarakteri, ritmi və tempi aydınlaşdırılır.

***Tapşırıq:*** Operada xalq musiqi nümunələrindən istifadə haqqında bildiklərinizi danışın.

***Mahnının müəllifi ilə əlaqədar məlumat bir neçə cür verilə bilər:***
1. Əyani vəsaitlərdən istifadə etməklə müəllimin şifahi şərhi ilə.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Şah İsmayıl" operasını kim yazmışdır?**
a) Ü.Hacıbəyli ☐ b) F.Əmirov ☐ c) M.Maqomayev ☐

**2. "Şirin dil" mahnısının bəstəkarı kimdir?**
a) T.Quliyev ☐ b) A.Məlikov ☐ c) E.Sabitoğlu ☐

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ



LAYİHƏ

# 20. ƏFRASİYAB BƏDƏLBƏYLİNİN “QIZ QALASI” BALETİNİN DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında biliklərini izah edir.

2. Bəstəkar yaradıcılığında istifadə olunmuş Azərbaycan musiqi folkloru nümunələrini melodik, ritmik və poetik xüsusiyyətlərinə görə təhlil edir.

3. Mahnının melodiyasını notla və sözləri ilə oxuyur.

**Bu mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

İlk Azərbaycan milli baletinin banisi bəstəkar Əfrasiyab Bədəlbəyli və onun müəllifi olduğu “Qız qalası” baleti haqqında qısa məlumat verildikdən, baletin məzmunu şagirdlərə açıqlanandan sonra bu əsərin I pərdəsindən Gülyanaq və Poladın “Adajio”su dinlənilir.

Tədqiqat sualı kimi ***“Dinlədiyiniz bu musiqi nümunəsinin xarakteri necədir?”*** – verilə bilər. Şagirdlərin əksəriyyəti musiqinin ağır tempə və yaddaqalan melodiyaya malik olduğunu söyləyirlər.

MÖVZU 20

**ƏFRASİYAB BƏDƏLBƏYLİNİN “QIZ QALASI” BALETİNİN DRAMATURGİYASI**



***Əfrasiyab Bədəlbəyli***

Bəstəkar Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baleti Azərbaycanın ilk milli baletidir. Baletin librettosu da bəstəkara məxsusdur. Rəqslərin quruluşu Qəmər Almaszadənindir. Librettonun mövzusu Qız qalası haqqında əfsanədən götürülmüşdür. Əsərdə azadlıq, məhəbbət və xoşbəxtlik uğrunda mübarizədən danışılır.

Qız qalası haqqında xalq arasında bir neçə əfsanə dolaşır. Bütün əfsanələrin sonunda qız özünü qalanın başından dənizə atır. Məhz buna görə də qala Qız qalası adlanır.

Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baleti də bu əfsanələrdən biri əsasında yazılıb. Baletin baş qəhrəmanları Gülyanaqla Poladdır. Polad əsl qəhrəmandır və Gülyanağın sevgisini qazanıb. Zəhmli Cahangir xan haqqında qədim rəvayət nəsildən-nəslə keçərək yayılıb və onu bu dastanın mənfi qəhrəmanına çevirib. Cahangir xan Gülyanağın atasıdır. O, qızının səadətinə mane olur. Gülyanağı Poladdan ayırmaq istəyir. Gülyanaq bir şərtlə razı olur: dənizin ortasında hündür qala tikilməlidir. Baletin sonunda Poladla xan döyüşür və xan məğlub olur. Gülyanaq isə Poladın məğlub oluğunu zənn edib, özünü qaladan dənizə atır və qala əbədi olaraq Qız qalasına çevrilir.



***“Qız qalası” baletindən***

***Musiqi dinləyək***
**Əfrasiyab Bədəlbəyli.**
*“Qız qalası” baleti. I pərdədən “Adajio”*

42

**2**

“Adajio”nun ortasında səslənən və intonasiyasına görə Azərbaycan xalq rəqsi olan “Cığcığa”ya bənzəyən, vals templi melodiyadan bir parça notla ifa edilir və adıçəkilən xalq rəqsi ilə müqayisə olunur.

## DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqi haqqında fikir söyləyir.
Verilmiş melodiyanı notla oxuyur.

1. Musiqinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

Dinlənilmiş və notla ifa olunmuş musiqilər ətrafında fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Nəticə olaraq şagirdlər belə bir fikrə gəlirlər ki, bəstəkarlar əsərin dramaturji xəttinə uyğun musiqi obrazları yaradarkən musiqi ifadə vasitələrinin bütün tərkib hissələrindən geniş istifadə edirlər.



MÖVZU 20

"Adajio" "Şüştər" klassik Azərbaycan muğamına əsaslanıb. Üçhissəli quruluşa malik olan "Adajio"nun orta hissəsində zərif vals səslənir.

*Gülyanaqla Poladın "Adajio"su*

*Yeni mahnı öyrənək*

**BAKI MAHNISI**

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Ənvər Əlibəylinindir.*

I
Bakı, əziz şəhər, mehriban diyar,
Sinəndə boy atıb oldum bəxtiyar,
Səndə ilk eşqimin yadigarı var.

*Nəqərat:*
Sən mənim söhbətim,
Şərəfim, şöhrətim,
Tükənməz dövlətim, əzizimsən.
Sən mənim söhbətim,
Şərəfim, şöhrətim,
Tükənməz dövlətim, əzizimsən,
Gözəl Bakı!

II
Ürəyim səninlə edir iftixar,
Xəzərin qoynunda saldın buruqlar.
Qəlbimdə qəlbinin hərarəti var.

*Nəqərat:*

III
Baxdıqca doymuram gözəlliyindən,
Şirin nəğmə qədər sevimlisən sən.
Hər yerdə, hər yanda deyəcəyəm mən.

*Nəqərat:*

SUAL VƏ TAPŞIRIQLAR

1. "Qız qalası" baleti hansı əfsanə əsasında yazılmışdır?
2. "Qız qalası" baletində hansı xalq musiqi nümunələrindən istifadə olunmuşdur? Araşdırma aparın və deyin.
3. Baletin baş qəhrəmanlarının ilk ifaçıları kim olmuşdur? Araşdırın və bu mövzuda təqdimat hazırlayın.

43

2

3

## YARADICI TƏTBİQETMƏ

3

Bəstəkar Tofiq Quliyev və Ənvər Əlibəylinin sözlərinə yazdığı "Bakı" mahnısı öyrədilir. Mahnının xarakteri, tempi, ritmi aydınlaşdırılır.

***Tapşırıq:*** Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletinin dramaturgiyası haqqında qısa təqdimat edin.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. İnternet materiallarından istifadə etməklə.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Qız qalası" baletinin bəstəkarı kimdir?**

a) M.Mirzəyev ☐ b) R.Mustafayev ☐ c) Ə.Bədəlbəyli ☐

**2. "Bakı" mahnısının müəllifləri kimdir?**

a) E.Sabitoğlu, Z.Ağayeva ☐ b) O.Rəcəbov, S.Nuruqızı ☐ c) T.Quliyev, Ə.Əlibəyli ☐



LAYİHƏ

## 21. MUSA MİRZƏYEVİN “ROMANTİK VALS-POEMA”SI VƏ İOHANN ŞTRAUSUN “VYANA MEŞƏSİNİN NAĞILLARI” ƏSƏRLƏRİNİN DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.

2. Bəstəkarın ritm, temp və dinamik nüanslardan müxtəlif variantlarda istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.

3. Mahnını ikisəsli kollektiv şəklində oxuyur.

**Mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, Venn diaqramı, müqayisə, müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Bəstəkar Musa Mirzəyevin simli alətlər üçün yazdığı “Romantik vals-poema” əsəri haqqında kiçik məlumat verildikdən sonra əsər dinlənilir. Sonra həmin əsərdən bir parça notla ifa edilir. Şagirdlər bu ecazkar musiqinin vals-rəqs xarakterli olduğunu aydınlaşdırırlar.

**2**

Avstriya bəstəkarı İohann Ştrausun “Vyana meşəsinin nağılları” əsəri dinlənilir, onun da vals-rəqs xarakterli olduğu müəyyənləşdirilir.

**3**

Tədqiqat sualı kimi ***“Dinlədiyiniz bu iki əsər arasında hansı oxşar və fərqli cəhətlər vardır?”*** – verilə bilər. Müəllimin köməyi ilə şagirdlər hər iki əsərin vals tempində olduğu, lakin birinin simli, digərinin simfonik orkestr üçün yazıldığını aydınlaşdırırlar.


MÖVZU 21

MUSA MİRZƏYEVİN “ROMANTİK VALS-POEMA”SI VƏ İOHANN ŞTRAUSUN “VYANA MEŞƏSİNİN NAĞILLARI” ƏSƏRLƏRİNİN DRAMATURGİYASI

1

*Musa Mirzəyev*

*İohann Ştraus (oğul)*

İnstrumental ifa üçün nəzərdə tutulmuş lirik xarakterli əsərə vals-poema deyilir. Bəstəkar Musa Mirzəyevin “Romantik vals-poema”sı Böyük Simli Alətlər Orkestri üçün bəstələnmişdir. Əsərin əsas mövzusunu əvvəlcə orkestrin I skripkaçıları, sonra isə II skripkaçıları ifa edirlər. Reprizada əsas mövzu altlar, violonçellər tərəfindən səslənir. Əsərdə sonata forması elementləri özünü göstərir. Musa Mirzəyevin “Romantik vals-poema”sı vals tempində yazılmışdır.

***Musiqi dinləyək və müqayisə edək***
**Musa Mirzəyev.**
*“Romantik vals-poema” əsərindən bir parça*

Vals janrının yaradıcısı Avstriyanın paytaxtı Vyanada yaşayan ata İohann Ştrausdur. İohann Ştrausun böyük oğlunun da adı İohann idi. Oğul İohann Ştraus ilk konsertini verəndə ata Ştrausun 40, oğulun isə 20 yaşı vardı. Oğul İohann Ştrausun bütün dünyada tanınan əsərlərindən biri “Vyana meşəsinin nağılları”dır. Bəstəkar bu əsərin əsas mövzusunun motivini bülbül cəh-cəhindən götürmüşdü.

2

***Musiqi dinləyək***
**İohann Ştraus.**
*“Vyana meşəsinin nağılları”. Əsas melodiyadan bir parça*

**İki musiqi əsərinin oxşar və fərqli cəhətləri**



44

### DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqi nümunəsinin melodiyalarını oxuyur.

Dinlədiyi musiqi əsəri haqqında fikir söyləyir.

1. Dinlədiyi musiqi nümunəsinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkillər çəkir.

LAYİHƏ

Müəllimlə birlikdə şagirdlər mövzu ilə əlaqədar informasiya mübadiləsində və müzakirəsində iştirak edirlər.

Belə nəticəyə gəlinir ki, eyni bir janrda bəstəkarlar dramaturji cəhətdən və xaraktercə bir-birinə oxşar musiqi nümunələri yarada bilərlər.



MÖVZU 21

*Musiqi dinləyək*
**İohann Ştraus.**
*"Vyana meşəsinin nağılları". Əsas melodiyadan bir parça*

*Notla oxuyaq*

**GÖRÜŞ FİLMİNDƏN VALS**
*Musiqisi Tofiq Quliyevindir*



**SUAL VƏ TAPŞIRIQLAR**

1. "Romantik vals-poema" hansı ifa üçün nəzərdə tutulub?
2. "Vyana meşəsinin nağılları" əsərinin əsas mövzusunun motivi haradan götürülüb?
3. "Romantik vals-poema" ilə "Vyana meşəsinin nağılları" əsərlərinin oxşar xüsusiyyətləri nədir? Bu haqda danışın.

45

3

4

## YARADICI TƏTBİQETMƏ

**4**

Bəstəkar Tofiq Quliyevin "Görüş" filmindən valsın kontatası vokalist şəklində oxunur.

***Tapşırıq:*** Vals janrının yaradıcısı İohann Ştraus haqqında qısa təqdimat hazırlayın.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***

1. İnternet materiallarından istifadə etməklə müəllimin şifahi şərhi vasitəsilə.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Vyana meşəsinin nağılları" əsərinin müəllifi kimdir?**
a) F.Şubert ☐ b) S.Raxmaninov ☐ c) İ.Ştraus ☐

**2. "Romantik vals-poema" əsəri hansı musiqi kollektivi üçün yazılmışdır?**
a) Nəfəs alətləri orkestri ☐ b) Simli alətlər orkestri ☐ c) Simfonik orkestr ☐

## KEÇİLMİŞ MÖVZULARIN TƏKRARI

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ



LAYİHƏ

# 24. VƏTƏN MÖVZUSU VƏ MUSİQİ

**MƏQSƏD:** 1. Dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında biliklərini izah edir.
2. Mahnını sözləri ilə və notla oxuyur.

**Bu mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

**1**

Tanınmış Polşa bəstəkarı Mixail Kleofas Oginski haqqında qısa məlumat verilir, onun "Vətənlə vidalaşma" polonezi səsləndirilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz əsərin xarakteri necədir?"*** – verilə bilər.

Şagirdlər müəllimin köməyi ilə "Vətənlə vidalaşma" polonezinin musiqisinin həzin-lirik xarakterə malik olduğunu aydınlaşdırırlar. Şagirdlər bu əsərin 3/4 xanə ölçüsündə olduğunu müəyyənləşdirirlər.

**3**

Bundan sonra polonezdən bir parça notla ifa olunur. Əgər təqdim olunan parça şagirdlərin səs diapazonları üçün yazılmış notlara uyğun gəlməzsə, onda bu melodiyanı 1–1/2 ton bəmə doğru transpozisiya etmək olar.

MÖVZU 24

**VƏTƏN MÖVZUSU VƏ MUSİQİ**



*Mixail Oginski*

Bəstəkarlar əsərlərində həmişə Vətən mövzusuna müraciət etmişlər. Belə bəstəkarlardan biri də Polşa bəstəkarı Mixail Oginskidir.

Frederik Şopeni və Mixail Oginskini vətənə, xalqa, onun mədəniyyətinə, incəsənətinə və musiqisinə olan hədsiz məhəbbət birləşdirir. Bəstəkar vətənində azadlıq uğrundakı döyüşlərə yardım məqsədilə var-dövlətini inqilabçılara vermişdir. İnqilab yatırılandan sonra böyük bəstəkar da azadlıq mücahidləri ilə birlikdə vətəni tərk etmişdir. Qürbətdə onun yazdığı ilk əsər məşhur "Vətənlə vidalaşma" polonezidir. Bu əsər bütün dünyada "Oginski polonezi" kimi tanınır.

1

***Musiqi dinləyək***
**Mixail Oginski.**
*"Vətənlə vidalaşma" polonezi*



***"Vətənlə vidalaşma" polonezindən***

2

Bu əsər fortepiano üçün yazılmasına baxmayaraq, sonradan simfonik orkestrlə işlənərək dünyanın musiqi salonlarında səslənmişdir. Əsər Azərbaycanda da sevilmişdir. "Vətənlə vidalaşma" polonezi tar və fortepiano alətlərində məşhur musiqiçilərimiz, o cümlədən tarzənlərdən Xalq artistləri Hacı Məmmədov, Ramiz Quliyev və digərləri tərəfindən ifa olunmuşdur.

**48**

## DİFERENSİAL TƏLİM

Dinlənilmiş musiqi nümunəsi ilə əlaqədar fikir söyləyir.

Dinlənilmiş musiqinin melodiyasını notla oxuyur.

1. Musiqinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkillər çəkir.

LAYİHƏ

Dinlənilmiş musiqi nümunəsi ilə əlaqədar fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Nəticə olaraq şagirdlər belə bir fikrə gəlirlər ki, dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri vətən mövzusuna həsr olunmuş çoxlu sayda əsərlər yaratmış və bunun üçün onlar musiqi ifadə vasitələrinin imkanlarından istifadə etmişlər.


MÖVZU 24

BUNU DA BİLİN

Polonez qədim Polşa xalq rəqsidir. Onun ölçüsü 3/4-dür. Polonez Avropa ölkələrində XVIII əsrdən başlayaraq geniş yayılmışdır. Polşa bəstəkarı Frederik Şopenin fortepiano musiqi aləti üçün çoxsaylı polonezləri vardır.

*Yeni mahnı öyrənək*

**AZƏRBAYCAN**

*Musiqisi Emin Sabitoğlunun,*
*sözləri Bəxtiyar Vahabzadənindir.*

I

Azərbaycan, sənsən mənim
Ülviyyətim, şan-şöhrətim!
Adın mənim öz adımdır,
Sənsiz mənim nə qiymətim,
Azərbaycan, Azərbaycan!

***Nəqərat:***
Biz tarixə sığınmadıq,
Dünən vardıq, bu gün varıq.
Biz dostluğa güvənərək
Gələcəyə addımlarıq,
Azərbaycan, Azərbaycan!

II

Nəfəsimiz Babəklərin,
Sabirlərin od nəfəsi.
Mahnımızda yaşar bizim
Babaların ayaq səsi,
Azərbaycan, Azərbaycan!

III

Azərbaycan, mənim eşqim,
Mənim andım, mənim anam.
Mən də sənin bir parçanam,
Azərbaycan, Azərbaycan!

Yallı xarakterli, aramlı tempə malik olan "Azərbaycan" mahnısı doğma vətənimizə həsr olunmuş çoxsaylı mahnılardan biridir.

SUAL VƏ TAPŞIRIQLAR

1. Polonez nədir?
2. Mixail Oginskinin Vətən sevgisi dünya musiqisinə hansı əsəri bəxş etdi?
3. "Vətənpərvərlik ruhunda yazılmış musiqi əsəri" mövzusunda danışın. Mahnının nəqəratını izah etməyə çalışın. Nəqəratdakı fikrin musiqi vasitəsilə ötürülməsi necə reallaşıb?

49

## YARADICI TƏTBİQETMƏ

**4** Bəstəkar Emin Sabitoğlunun şair Bəxtiyar Vahabzadənin sözlərinə yazdığı "Azərbaycan" mahnısı öyrədilir. Müəllimin köməyi ilə mahnının xarakteri, xanə ölçüsü, tempi aydınlaşdırılır və onun vətənimiz Azərbaycana həsr olunduğu bildirilir.

***Tapşırıq:*** "Azərbaycan mahnılarında vətən mövzusu" ilə əlaqədar qısa təqdimat hazırlayın.

***Musiqi əsərlərinin müəllifləri haqqında məlumatın verilməsi müxtəlif cür ola bilər:***
1. İnternet materiallarından istifadə etməklə müəllimin şifahi şərhi vasitəsilə.
2. Şagirdlər fərdi şəkildə.

### MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabların qarşısına (+) işarəsi qoyun.

**1. "Vətənlə vidalaşma" polonezinin müəllifi kimdir?**
a) R.Şuman ☐ b) M.Qlinka ☐ c) M.Oginski ☐

**2. Emin Sabitoğlunun "Azərbaycan" mahnısının sözləri kimə məxsusdur?**
a) S.Vurğuna ☐ b) S.Rüstəmə ☐ c) B.Vahabzadəyə ☐

LAYİHƏ

# 25. FİKRƏT ƏMİROVUN "SEVİL" OPERASININ DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.
2. Mahnını notla və sözləri ilə kollektiv tərkibində oxuyur.

**Bu mövzunun aydınlaşdırılmasında beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Fikrət Əmirovun "Sevil" operası və onun məzmunu ilə əlaqədar qısa məlumat verdikdən sonra operanın III pərdəsindən "Balaşın ariyası" dinlənilmək üçün səsləndirilir.

"Balaşın ariyası" haqqında fikir söyləmək üçün müəllim şagirdlərə belə bir tədqiqat sualı ilə müraciət edə bilər: ***"Uşaqlar, dinlədiyiniz "Balaşın ariyası"nın xarakteri necədir?"***

Şagirdlər "Balaşın ariyası" ilə əlaqədar suallara cavab verdikdən sonra müəllim cavabları yekunlaşdırır və məlum olur ki, bu çox gərgin və kədərli xarakterə malik musiqidir.

**1**

MÖVZU 25

**FİKRƏT ƏMİROVUN "SEVİL" OPERASININ DRAMATURGİYASI**



*Cəfər Cabbarlı*

Fikrət Əmirovun Cəfər Cabbarlının eyniadlı əsəri əsasında yazdığı "Sevil" operası Azərbaycan qadınının azadlıq mübarizəsinə həsr olunub. Operanın baş qəhrəmanı Sevildir. Sevil qadın azadlığı uğrunda mübarizəyə qalxmış qadınların ümumiləşdirilmiş obrazıdır. Operada "Sevilin ariya"sı Şüştər muğamının intonasiyalarına əsaslanır.

Əsərin digər obrazı Balaşın kobudluğu Sevilə əzab verir. Sevil öz hüquqlarının müdafiəsinə qalxır, çadrasını ataraq evi tərk edir.

İllər ötür... Balaşın bacısı Gülüşün evində Gündüzün ad günü keçirilir. Atakişi və Babakişi də buradadırlar. Balaş məclisə gəlir. Gündüz atasını tanımır. Balaş tamamilə dəyişmiş, Moskvada təhsil almış Sevildən üzr istəyir və bağışlanmasını xahiş edir. Sevil isə onu heç vaxt bağışlamayacağını söyləyir.



***"Sevil" operasından***



***"Azad qadın" heykəli***

***Musiqi dinləyək***
**Fikrət Əmirov.**
*"Sevil" operasının III pərdəsindən "Balaşın ariyası"*

50

**2**

"Sevil" operasının "Balaşın ariyası"ndan bir parça notla ifa olunur və onun ifa üslubu müəyyənləşdirilir.

## DİFERENSİAL TƏLİM

Operadan səslənmiş musiqi parçaları haqqında fikir söyləyir.
Operadan musiqi parçalarını notla oxuyur.

1. Səslənən musiqiyə əl çalmaqla ritm tutur.
2. Mövzuya uyğun şəkillər çəkir.

LAYİHƏ

Dinlənilmiş və notla ifa olunmuş musiqi nümunələri ilə əlaqədar fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Nəticə olaraq şagirdlərə məlum olur ki, bəstəkar Fikrət Əmirov "Sevil" operasındakı obrazları yaradarkən musiqi ifadə vasitələrinin müxtəlif tərkib hissələrindən istifadə etmişdir.


MÖVZU 25

BUNU DA BİLİN

Böyük Azərbaycan bəstəkarı Fikrət Əmirov ciddi janrda əsərlər yazmaqla bərabər, uşaqları da yaddan çıxarmamış və onlar üçün çoxlu sayda mahnılar yazmışdır. Onun "Bip-bipin nəğməsi", "Bizim həyət", "Odlar ölkəsi", "Qatar", "Quzum" mahnılarını uzun illərdir uşaqlar sevə-sevə oxuyurlar.

*Yeni mahnı öyrənək*

**"SEVİL" OPERASINDAN "ATAKİŞİNİN KUPLETLƏRİ"**

*Musiqisi Fikrət Əmirovundur*

I
Ay sənə qurban inəklər,
Balam nə vaxt iməklər?!
Sənə qurban inəklər,
Balam nə vaxt iməklər?!

II
Ay sənə qurban sərçələr,
Bu balam nə vaxt dirçələr?!
Sənə qurban sərçələr,
Balam nə vaxt dirçələr?!

III
Ay sənə qurban alçalar,
Balam nə vaxt əl çalar?!
Gündüz balam əl çalar,
Gözəl qızlar oynayar, hey!

SUAL VƏ TAPŞIRIQLAR

1. "Sevil" operası kimin eyniadlı əsəri əsasında yazılıb?
2. "Sevilin ariyası" hansı muğamın intonasiyalarına əsaslanır?
3. Fikrət Əmirovun hansı uşaq mahnıları var?

51

2

3

## YARADICI TƏTBİQETMƏ

3

Fikrət Əmirovun "Sevil" operasından "Atakişinin kupletləri" şagirdlərə öyrədilir, onun ritmi, melodiyası, tempi, xarakteri, müşayiəti haqqında açıqlamalar verilir.

***Tapşırıq:*** "Sevil" operasının bəstəkarı Fikrət Əmirov və əsərin müəllifi Cəfər Cabbarlı haqqında qısa təqdimat edin.

***Mahnının müəllifi haqqında məlumat müxtəlif cür verilə bilər:***
1. İnternet materiallarından istifadə etməklə müəllimin şifahi şərhi vasitəsilə.
2. Şagirdlər fərdi şəkildə.

### MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Sevil" operasının bəstəkarı kimdir?**

a) O.Rəcəbov ☐ b) M.Mirzəyev ☐ c) F.Əmirov ☐

**2. "Sevil" operasından "Atakişinin kupletləri"nin xarakteri necədir?**

a) şən-oynaq ☐ b) qəmli ☐ c) təntənəli ☐



LAYİHƏ

# 26. FİKRƏT ƏMİROVUN "SEVİL" OPERASINDAN "DİLBƏRİN NƏĞMƏSİ" İLƏ JORJ BİZENİN "KARMEN" OPERASINDAN "XABANERA" ARASINDA ƏLAQƏLƏR

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.
2. Mahnını sözləri ilə və notla kollektiv tərkibində oxuyur.

**Mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

**1**

Fikrət Əmirovun "Sevil" operasından "Dilbərin nəğməsi" dinlənilir.

**2**

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz musiqinin ritmləri ilə Azərbaycan xalq musiqisinin ritmləri arasında oxşarlıq vardırmı?"*** – verilə bilər. Şagirdlər bu ritmlərin xalq musiqimizin ritmləri ilə heç bir oxşarlığı olmadığını müəyyənləşdirirlər.

Bu musiqinin yazılmasında Argentina rəqsi hesab olunan tanqonun ritmlərindən istifadə olunduğu aydınlaşdırılır.

**3**

Bundan sonra Jorj Bizenin Prosper Merimenin əsəri əsasında yazdığı "Karmen" operasından "Xabanera" səsləndirilir və onun melodiyasından bir parça notla ifa edilir. Hər iki musiqi nümunəsi arasında oxşar cəhətlər müəyyənləşdirilir.

MÖVZU 26

**FİKRƏT ƏMİROVUN "SEVİL" OPERASINDAN "DİLBƏRİN NƏĞMƏSİ" İLƏ JORJ BİZENİN "KARMEN" OPERASINDAN "XABANERA" ARASINDA ƏLAQƏLƏR**

**1**



***"Sevil" operasından Dilbər obrazı***

Fikrət Əmirovun "Sevil" operasında baş rollardan biri də Dilbər obrazıdır. Bəstəkar bu obrazın daxili cizgilərini açmaq üçün Argentina xalq rəqsi tanqonun ritmlərindən istifadə edib. "Dilbərin nəğməsi"ndə o, musiqi ifadə vasitələrinin köməyi ilə Dilbəri cılız xəyallarla yaşayan qadın obrazı kimi göstərə bilib.

***Musiqi dinləyək***
**Fikrət Əmirov.**
*"Sevil" operasından "Dilbərin nəğməsi"*

Bəstəkar Fikrət Əmirov Dilbər obrazı üçün ironik və kəskin zarafat şəklində, Avropa tərzində bir melodiya yaratmışdır. Bu yolla o, həm də Balaşın faciəsini açır.

***Musiqi dinləyək***
**Jorj Bize.**
*"Karmen" operasından "Xabanera"*

**2**



***Jorj Bize***

"Karmen" operasını fransız bəstəkarı Jorj Bize Prosper Merimenin eyniadlı novellasının motivləri əsasında yazmışdır. "Sevil" operasındakı Dilbər obrazı kimi, qaraçı qızı Karmen də ətrafdakıların diqqətini özünə cəlb etmək üçün əlindən gələni edir. Operanın digər qəhrəmanları Don Xoze və Mikaelladır. Karmenlə münasibətləri üzündən Xozenin başı çox bəlalar çəkir.



***"Karmen" operasından Karmen obrazı***

52

## DİFERENSİAL TƏLİM

Dinlənilmiş musiqi nümunələri haqqında fikir söyləyir.

Dinlədiyi musiqinin melodiyasını notla oxuyur.

1. Dinlədiyi musiqi nümunələrinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkillər çəkir.

LAYİHƏ

Dinlənilmiş musiqi nümunələri ilə əlaqədar fikir mübadiləsi aparılır və müzakirə təşkil olunur.

Nəticədə şagirdlərə aydın olur ki, musiqi üçün heç bir sərhəd yoxdur və Azərbaycan bəstəkarları dünya xalqlarının melodiyalarından, ritmindən, ladından istifadə edərək əsərlər yarada bilərlər.

MÖVZU 26

**BUNU DA BİLİN**

"Xabanera" Kuba dənizçilərinin mahnısıdır. "Xabanera" həm də Kuba xalq rəqsidir. Bu rəqs öz ritmlərinə görə tanqoya bənzəyir. "Xabanera" XIX əsrin ikinci yarısında Latın Amerikasında çox sevilirdi. **3**

***Mahnını yada salaq və oxuyaq***

**ODLAR ÖLKƏSİ**

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Tofiq Mütəllibovundur.*

I
Qəlbini ucaltmış göyə məşəltək,
Bakıdır köksündə döyünən ürək,
Gülür gözlərində böyük gələcək.

***Nəqərat:***
Eşitsin obalar, ellər bu səsi,
Bu gün bayram edir Odlar ölkəsi.

II
Dostluğun eşqiylə ucalırıq biz,
Gül açır, bar verir diləklərimiz,
Bir vurur hər zaman ürəklərimiz.
***Nəqərat:***

III
Sevinclə ötüşür onun hər anı.
Dillərdə dolaşır şöhrəti, şanı,
Zəfərlər ucaldır Azərbaycanı.
***Nəqərat:*** **4**



**SUAL VƏ TAPŞIRIQLAR**

1. "Xabanera" rəqsi hansı xalqa məxsusdur?
2. "Dilbərin nəğməsi" və "Xabanera" hansı janrda yazılıb?
3. "Odlar ölkəsi" mahnısında Odlar yurdu Azərbaycan necə tərənnüm olunur?

53

## YARADICI TƏTBİQETMƏ

**4**

Bəstəkar Fikrət Əmirovun şair Tofiq Mütəllibovun sözlərinə yazdığı "Odlar ölkəsi" mahnısı yada salınaraq ifa edilir. Mahnının xarakteri, xanə ölçüsü, tempi və ritmi şagirdlərə açıqlanır.

***Tapşırıq:*** "Dilbərin nəğməsi" ilə Karmenin "Xabanera"sı arasında oxşarlıq mövzusunda qısa təqdimat edin.

***Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. İnternet materialından istifadə edərək müəllimin şifahi şərhi.
2. Şagirdlərin fərdi şərhi.

### MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Xabanera" hansı xalqa məxsus rəqsdir?**
a) alman ☐ b) fransız ☐ c) ispan ☐

**2. "Karmen" operasının bəstəkarı kimdir?**
a) E.Qriq ☐ b) M.Musorqski ☐ c) J.Bize ☐



LAYİHƏ

# 27. BÖYÜK VƏTƏN MÜHARİBƏSİ OBRAZI VƏ MUSİQİ

**MƏQSƏD:** 1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında bilikləri izah edir.

2. Bəstəkarın ritm, temp və dinamik nüanslardan müxtəlif variantlarda istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.

3. Mahnının melodiyasını notla və sözləri ilə oxuyur.

**Bu mövzunu şagirdlərə aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

MÖVZU 27

**BÖYÜK VƏTƏN MÜHARİBƏSİ OBRAZI VƏ MUSİQİ**



*Dmitri Şostakoviç*



*Aleksandr Aleksandrov*

1941-1945-ci illərdə Böyük Vətən müharibəsində qazanılan qələbədə azərbaycanlılardan ibarət 416-cı diviziyanın böyük rolu oldu. Faşist Almaniyasına qarşı ordu ilə bərabər, ziyalılar – şairlər, yazıçılar, rəssamlar və musiqiçilər də ayağa qalxdılar. Vətənpərvərlik, düşmənə nifrət və mübarizə əzmi yaradan mahnılar, irihəcmli musiqi əsərləri yarandı. Rus bəstəkarı Aleksandr Aleksandrovun "Müqəddəs müharibə" mahnısı, Dmitri Şostakoviçin "7-ci simfoniya"sı, Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" operası, Üzeyir Hacıbəylinin mübarizə ruhlu mahnıları əsgərləri ruhlandırdı, onların böyük şücaət göstərmələrinə kömək etdi.

1

***Musiqini yada salaq və dinləyək***
**Dmitri Şostakoviç.**
*"7-ci simfoniya"dan "Basqın" epizodu*

XX əsrin sonu, XXI əsrin əvvəllərində də Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında Böyük Vətən müharibəsi, Qarabağ müharibəsi mövzularına müraciət edərək müxtəlif janrlarda gözəl musiqi nümunələri yaratmışlar. Firəngiz Əlizadənin Qarabağ hadisələrinə həsr edilmiş "İntizar" operası, Xalq artisti Azər Rzayevin 20 Yanvar faciəsinə həsr olunmuş "Bakı-90" simfoniyası, Oqtay Rəcəbovun "Çingiz" simfoniya-rekviyem əsəri, Faiq Sücəddinovun "Zəfər" simfonik poeması müharibə mövzusuna həsr olunmuş əsərlərdəndir.



*Aleksandr Laktionov. "Cəbhədən məktub"*

54

**1**

Dinlənilmək üçün səsləndirilməzdən əvvəl İkinci Dünya müharibəsi illərində yaranmış mahnılar və digər janrlı əsərlər haqqında müəllim qısa məlumat verir. Bundan sonra adı qeyd olunan əsər səsləndirilir və ondan bir parça notla ifa edilir.

Tədqiqat sualı kimi ***"7-ci simfoniya" haqda nə deyə bilərsiniz?"*** – sualı verilə bilər. Şagirdlər bu suala müxtəlif cavablar verirlər.

## DİFERENSİAL TƏLİM

Dinlənilən musiqi ilə əlaqədar fikirlərini söyləyir.

Dinlədiyi musiqidən melodiyalar oxuyur.

1. Dinlədiyi musiqinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

**2**

Şagirdlərə müəllimin köməyi ilə aydın olur ki, dinlədikləri epizod alman faşistlərinin Rusiyaya hücumunu təsvir edən bir dramaturji səhnədir.

LAYİHƏ

Dinlənilmiş musiqi nümunələri ətrafında fikir mübadiləsi aparılır və müzakirələr təşkil olunur.

Nəticə olaraq şagirdlər belə fikrə gəlirlər ki, bəstəkarlar öz dövrünün tələblərinə uyğun əsərlər yaradırlar ki, bunlardan biri də müharibə mövzusudur. Müharibə illərində, o cümlədən Qarabağ müharibəsi dövründə Azərbaycan bəstəkarları bu mövzuda gözəl musiqi nümunələri yaratmışlar.

MÖVZU 27

*Mahnı oxuyaq*

**VƏTƏN ƏMANƏTİ**

*Musiqisi və sözləri Şahin Musaoğlunundur.*

Döyüşlərdə bərkiyəcək son sözünü demək üçün,
Haqq yolundan dönməyəcək azadlığa yetmək üçün.

***Nəqərat:***
Əsgər, Vətən əmanəti, yurd əmanəti,
Əsgər, ocaq əmanəti, od əmanəti.

İntiqamı alınmasa şəhidlərin, geri dönmə!
Son qələbə çalınmasa, silahınla sən öyünmə!
***Nəqərat:***

Atılanda düşmən üstə qollarına təpər olsun,
Göz yoldadır, qulaq səsdə, savaşımız zəfər olsun.
***Nəqərat:***



**SUAL VƏ TAPŞIRIQLAR**

1. “Basqın” epizodu hansı simfoniyaya aiddir?
2. “Xudayar təsnifi”ndə Vətən necə canlandırılır?
3. Faiq Sücəddinovun “Zəfər” simfonik poemasını dinləyin. Simfonik poemada Zəfər obrazının musiqi ifadə vasitələri ilə yaranmasından danışın.

55

3

## YARADICI TƏTBİQETMƏ

3

Əlibaba Məmmədovun Əliağa Vahid şeirinə yazdığı “Xudayar təsnifi” mahnısı sözlərilə öyrədilir. Mahnının ritmi, tempi, melodiyası araşdırılır və onlar haqqında fikir söylənilir.

***Tapşırıq:*** “Böyük Vətən müharibəsi mövzusu mahnılarımızda” adlı şifahi təqdimat hazırlayın.

***Mahnı müəllifləri haqqında məlumat müxtəlif cür verilə bilər:***
1. İnternet materiallarından istifadə etməklə müəllimin şifahi şərhi vasitəsilə.
2. Şagirdlər fərdi şəkildə.

### MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Xudayar təsnifi” mahnısının bəstəkarı kimdir?**
a) N.A.Rimski-Korsakov ☐ b) S.Raxmaninov ☐ c) Ə.Məmmədov ☐

**2. Təsnifə nə zamandan etibarən “Xudayar təsnifi” adı verilmişdir?**
a) I Qarabağ müharibəsi ☐ b) 44 Günlük müharibə ☐ c) II Dünya müharibəsi ☐

### KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ



LAYİHƏ

# 28. CÖVDƏT HACIYEVİN "SÜLH UĞRUNDA" SİMFONİK POEMASININ DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların tanınmış əsərləri haqqında bilikləri izah edir.

2. Azərbaycan bəstəkarlarının əsərlərində muğam intonasiyalarından istifadəyə münasibət bildirir.

3. Mahnını notla oxuyur.

**Mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək məsləhət görülür.**

MÖVZU 28

**CÖVDƏT HACIYEVİN "SÜLH UĞRUNDA" SİMFONİK POEMASININ DRAMATURGİYASI**

Bəstəkar Cövdət Hacıyevin "Sülh uğrunda" simfonik poeması ilk dəfə Azərbaycan Dövlət Filarmoniyasının Simfonik Orkestri tərəfindən məşhur dirijor-bəstəkar Niyazinin rəhbərliyi ilə səslənmişdir.

"Sülh uğrunda" simfonik poeması — azadlıq, sülh, istiqlaliyyət uğrunda mübarizəyə həsr edilmişdir.

Simfonik poemada Cövdət Hacıyev dövrün mühüm problemlərini lirik-dramatik tərzdə əks etdirmişdir. Bu musiqi bəşəriyyəti azadlıq və tərəqqi uğrunda fəal mübarizəyə çağırır.



*Simfonik orkestr*

Əsər fanfar xarakterli mövzu ilə başlayır. Əsərin əsas mövzusu aşıq musiqisini xatırladır və cəld tempdə səslənir. Köməkçi mövzu xaraktercə əsas mövzu ilə təzad təşkil edir. Simfonik poemanın sonundakı təntənəli yürüş xalq birliyini xatırladır.

**BUNU DA BİLİN**

Fanfar — mis musiqi alətidir. Nəfəsli alətlər qrupuna daxildir. Əsasən, siqnalların ötürülməsi üçün istifadə edilir. Fanfar — həm də təntənəli və hərbi xarakterli musiqi frazalarına deyilir. Bu musiqi frazaları fanfar musiqi alətinin köməyi ilə ifa edilir.

***Musiqi dinləyək***

**Cövdət Hacıyev.**

*"Sülh uğrunda" simfonik poema. Giriş, əsas və köməkçi mövzuların hərəsindən bir parça*

***Notla oxuyaq***

**Cövdət Hacıyev.**

*"Sülh uğrunda" simfonik poema. Əsas mövzudan bir parça*

56

**1**

Müəllim Azərbaycan Respublikasının Xalq artisti, bəstəkar Cövdət Hacıyev və onun dinləniləcək əsəri haqqında məlumat verdikdən sonra "Sülh uğrunda" simfonik poemasından giriş, əsas və köməkçi mövzular səsləndirilir.

Tədqiqat sualı kimi ***"Dinlədiyiniz bu üç musiqi nümunəsi bir-birindən necə fərqlənir?"*** – verilə bilər. Şagirdlər bu suala müxtəlif cavablar verirlər. Müəllim onların suallarını yekunlaşdıraraq deyir ki, bu üç mövzu xaraktercə müxtəlifdir.

**2**

Bundan sonra müəllimin köməyi ilə bu üç mövzudan ikisini notla oxuyurlar. Məlum olur ki, bu iki mövzu həm xaraktercə, həm də tempinə görə bir-birindən fərqlənirlər.

## DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqi nümunələrini notla oxuyur.
Dinlədiyi musiqilər haqqında fikir söyləyir.

1. Musiqinin ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkilləri müəllimin təqdim etdiyi şəkillərin içindən seçir.

LAYİHƏ

Dinlənilən və notla ifa olunan musiqi nümunələri ətrafında fikir mübadiləsi və müzakirələr aparılır.

Nəticədə şagirdlər belə bir fikrə gəlirlər ki, bu üç musiqi mövzusu templərinə, xarakterlərinə görə bir-birindən fərqlənirlər.


MÖVZU 28

Allegretto

*Yeni mahnı öyrənək*

**XUDAYAR TƏSNİFİ**

*Musiqisi Əlibaba Məmmədovun,*
*sözləri Əliağa Vahidindir.*

I

Dumanlı dağların başında durdum,
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan öz gözəl yurdum,
Dumanlar başında dastana döndü,
Dastana döndü...
Deyirlər bülbülə çəmən yaxşıdır,
İnsançün laləzar, vətən yaxşıdır.
Şair, sorma vətən nədən yaxşıdır?
Adı gəlcək könlüm dastana döndü,
Dastana döndü...

II

Könüllər cəlb edən bu xoş mənzərə
Şövqümü artırdı şeirə, qəzələ.
Çatdıqca vətənim, elim nəzərə
Təbiət də mənə heyran göründü,
Heyran göründü...
Xəzər dənizitək eşqimlə coşdum,
Xülyalar içində sanki bihuşdum.
Vətən arzusuyla nəğmələr qoşdum,
Tufanlar qarşımda dastan göründü,
Dastana döndü...

SUAL VƏ TAPŞIRIQLAR

1. Cövdət Hacıyevin "Sülh uğrunda" simfonik poeması ilk dəfə hansı dirijorun müşayiəti ilə səslənmişdir?
2. "Sülh uğrunda" simfonik poema hansı xarakterli mövzu ilə başlayır?
3. "Vətən əmanəti" mahnısı haqqında kiçik şifahi təqdimat hazırlayın.

57



## YARADICI TƏTBİQETMƏ

3

Bəstəkar Şahin Musaoğlunun "Vətən əmanəti" mahnısı notla ifa olunur və şagirdlər melodiyanı oxuya-oxuya həm də dirijorluq edirlər.

***Tapşırıq:*** "Mahnılarımızda bütün dünyaya sülh arzusu" mövzusunda kiçik esse hazırlayın.

***Musiqi əsərlərinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:***
1. Müəllimin internetdən istifadə edərək şagirdlərə verdiyi məlumat şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. "Sülh uğrunda" simfonik poemasının müəllifi kimdir?**

a) Q.Qarayev ☐ b) C.Hacıyev ☐ c) Ü.Hacıbəyli ☐

**2. "Vətən əmanəti" mahnısının bəstəkarı kimdir?**

a) S.Rüstəmov ☐ b) Q.Hüseynli ☐ c) Ş.Musaoğlu ☐

LAYİHƏ

# 29. MİGEL DE SERVANTESİN VƏ QARA QARAYEVİN EYNİADLI "DON KİXOT" ƏSƏRLƏRİNİN DRAMATURGİYASI

**MƏQSƏD:** 1. Bəstəkarın ritm, temp və dinamik nüanslardan müxtəlif variantlardan istifadə etməklə yaratdığı obrazlara münasibət bildirir.

2. Mahnının melodiyasını sözləri ilə birlikdə kollektiv tərkibində oxuyur.

**Bu mövzunu öyrətmək üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə etmək tövsiyə olunur.**

MÖVZU 29

**MİGEL DE SERVANTESİN VƏ QARA QARAYEVİN EYNİADLI "DON KİXOT" ƏSƏRLƏRİNİN DRAMATURGİYASI**

1



*Migel de Servantes*

İspan yazıçısı Migel de Servantesin "Don Kixot" əsəri əsasında rus kinorejissoru Q.Kozintsevin çəkdiyi eyniadlı bədii filmin musiqisini Azərbaycan bəstəkarı Qara Qarayev yazmışdır. Sonradan Qara Qarayev bu filmin musiqisi əsasında "Don Kixot" simfonik qravürlərini yaradır.

Romanda Don Kixot mürəkkəb və təzadlı xarakterli qəhrəman kimi göstərilir. Don Kixot bir tərəfdən yel dəyirmanı ilə vuruşan şöhrətpərəst, digər tərəfdən mübariz humanist kimi təqdim edilir. Romandakı obrazlara diqqət yetirək: Don Kixot, Sanço Pansa, Dulsineya. Bu obrazların xarakterində ispan xalqına xas xəyalpərəstlik nəzərə çarpır.

2

Qara Qarayevin əsərində də biz üç obrazla rastlaşırıq: Don Kixot, Sanço Pansa və Aldonsa obrazları. Qara Qarayevin "Don Kixot"unda komizm yoxdur. O, ədalət uğrunda mübarizə aparan, əzab çəkən, etiraz edən və sonda məhv olan bir insandır. "Don Kixot" simfonik qravürləri — "Səyahət", "Aldonsa", "Sanço Pansa", "Pavana", "Kavalkada"dan ibarət simfonik silsilədir. Simfonik silsilə "Don Kixotun ölümü" qravürü ilə başa çatır. Bu qravür bir növ silsilənin yekunudur.



***Boris İvanov. "Don Kixot"***

*Musiqi dinləyək*
**Qara Qarayev.**
*"Don Kixot" simfonik qravürlərindən "Aldonsa"*

58

1

Müəllim Qara Qarayevin "Don Kixot" bədii filminə yazdığı musiqinin yaranma tarixi ilə əlaqədar qısa məlumat verir. Burada şagirdlərə ispan yazıçısı M.Servantes, filmin rejissoru Q.Kozintsev haqqında da məlumatlar verilir. Bundan sonra tədqiqat sualı kimi ***"M.Servantes, Q.Qarayev və Q.Kozintsev kimi sənətkarlar arasında hansı əlaqə mövcud idi?"*** – verilə bilər.

Şagirdlər kinorejissorun Migel de Servantesin eyniadlı əsəri əsasında "Don Kixot" filmini çəkdiyini, Qara Qarayevin isə bu filmə musiqi yazdığı qənaətinə gəlirlər.

2

Q.Qarayevin "Don Kixot" simfonik qravürü "Aldonsa" dinlənilir və notla ifa edilir.

## DİFERENSİAL TƏLİM

Dinlədiyi musiqinin melodiyasını notla oxuyur.

Dinlədiyi musiqi haqqında sərbəst fikir söyləyir.

1. Dinlədiyi musiqiyə ritmik müşayiət yaradır.
2. Mövzuya uyğun şəkil çəkir.

LAYİHƏ

Dinlənilmiş musiqi ilə əlaqədar fikir mübadiləsi və müzakirə aparılır.

3

Şagirdlər belə bir nəticəyə gəlirlər ki, “Don Kixot” filminin dramaturgiyasını yaratmaq üçün kinorejissor, libretto müəllifi, bəstəkar, həm də quruluşçu rəssamın iştirakı vacibdir.

MÖVZU 29

**BUNU DA BİLİN**

Migel de Servantesin dünyaca məşhur “Don Kixot” əsərinin baş qəhrəmanının adı, əslində, heç də Don Kixot Lamançski deyil. Onun əsl adı Alonso Kixanodur. Don Kixot isə sadəcə onun təxəllüsüdür.

3

*Yeni mahnı öyrənək*

**SEVİNC MAHNISI**

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Zeynal Cabbarzadənindir.*

I

Xalqımın günləri
Nə gözəl, necə şən keçir.
Hər şirin arzular
Ürəyimdən keçir.
Ah!
Çala-çala min zəfər
Hər nəfər yurdumuzda,
Abad olur el-oba,
Kənd, şəhər yurdumuzda.

II

Gözəldir, a dostlar,
Vətənin toyu, bayramı.
Bu azad mahnını
Qoy söyləsin hamı.
Ah!
Çala-çala min zəfər
Hər nəfər yurdumuzda,
Abad olur el-oba,
Kənd, şəhər yurdumuzda.

*Nəqarət:*
Aça-aça güllərimiz,
Yaşa-yaşa ellərimiz,
Daşa-daşa sellərimiz,
Günlərimiz var!

4

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Migel de Servantesin “Don Kixot” əsərində əsas obrazlar hansılardır?
2. Qara Qarayevin “Don Kixot” simfonik qravürləri hansı hissələrdən ibarətdir?
3. “Don Kixot” simfonik qravürləri silsiləsi hansı hissə ilə bitir?

59

## YARADICI TƏTBİQETMƏ

4

Bəstəkar Tofiq Quliyev şair Zeynal Cabbarzadənin sözlərinə yazdığı “Sevinc mahnısı” öyrədilir. Mahnının xarakteri, tempi, ritmi, melodik xüsusiyyətləri aydınlaşdırılır.

***Tapşırıq 1.*** Dinlədiyiniz mahnının xarakteri haqqında danışın.

***Tapşırıq 2.*** “İstiqlal bayramı – May” mahnısının melodik xüsusiyyətlərini sadalayın.

***Mahnı müəllifləri ilə əlaqədar məlumatlar müxtəlif cür verilə bilər:***

1. Müəllimin internet materiallarından istifadə edərək hazırladığı şifahi təqdimat şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. “Don Kixot” filminin musiqisinin müəllifi kimdir?**

a) A.Məlikov ☐ b) Ş.Axundova ☐ c) Q.Qarayev ☐

**2. “Sevinc mahnısı” hansı tempdə yazılmışdır?**

a) ağır ☐ b) cəld ☐ c) orta ☐



LAYİHƏ

# 30. MUSİQİDƏ BAYRAM MÖVZUSU

**MƏQSƏD:** 1. Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini izah edir.
2. Mahnını ikisəsli kollektiv şəklində oxuyur.

**Bu mövzunu aydınlaşdırmaq üçün beyin həmləsi, müqayisə və müzakirə kimi iş üsullarından istifadə olunması tövsiyə olunur.**

MÖVZU 30

**MUSİQİDƏ BAYRAM MÖVZUSU**





1 28 may 1918-ci il müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. 1990-cı ildən 28 may Respublika Günü — dövlət müstəqilliyi bayramı kimi qeyd edilir.

Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan Demokratik Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi. Təəssüflər olsun ki, müstəqil Azərbaycan Cümhuriyyəti bolşeviklərin hücumuna məruz qalıb devrildi. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. İllər ötdü... Xalqın azadlıq arzusu sönmədi. İstiqlal ideyası yeniləndi və 1991-ci ildə Sovet imperiyasının dağılması ilə Azərbaycan bir daha öz müstəqilliyini elan etdi.

Məhz bundan sonra xalqımız hər il 28 mayı Respublika Günü kimi bayram edir.

***Musiqi dinləyək***

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ**

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

2 Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin rəmzidir. Himnimizə dərin ehtiram bəsləmək hər bir vətəndaşın müqəddəs borcudur.

Hər birimiz Dövlət himnimizi ayaq üstə dinləməli və oxumalıyıq.

60

**1**

Müəllim Azərbaycanda hər il qeyd olunan Respublika Günü bayramının tarixi ilə əlaqədar məlumat verdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni ayaq üstündə dinlənilir.

**2**

Tədqiqat sualı kimi ***"Dövlət himnini dinlədikdə nəyə görə hamı ayağa qalxır?"*** – verilə bilər. Bununla əlaqədar müəllim tərəfindən hər bir dövlətin bayraq, gerb və himn kimi rəmzləri olması haqqında da məlumat verilir.

Azərbaycan Dövlət himninin dinlənməsi qaydaları haqqında danışılır.

Azərbaycan Respublikasının Dövlət himninin xarakteri, tempi, sözləri ilə musiqisi arasında əlaqəsi ətrafında sual-cavab üsulu ilə dialoq aparılır.

## DİFERENSİAL TƏLİM

Dinlənilən musiqinin melodiyasını oxuyur.
Dinlədiyi musiqi haqqında öz fikrini söyləyir.

↓

1. Musiqinin məzmununa uyğun şəkil çəkir.
2. Musiqinin ritminə uyğun əl çalır.



LAYİHƏ

Dinlənilmiş musiqi ilə əlaqədar fikir mübadiləsi və müzakirə təşkil olunur.

Şagirdlər müəllimin köməyi ilə belə bir nəticəyə gəlirlər ki, Azərbaycan Respublikasının Dövlət himni xaraktercə təntənəlidir və onun sözlərinin məzmunu musiqisi ilə uzlaşır.

MÖVZU 30

*Yeni mahnı öyrənək*

**MÜBARƏK**

*Musiqisi Əfsər Cavanşirovun,*
*sözləri Hikmət Ziyanındır.*

I

Azərbaycan, bu bayram
Sənə necə yaraşır.
Nəğmə deyir Kür, Araz,
Göy Xəzər coşub-daşır.

II

Oğlun, qızın hünərdən
Çələnglər hörür bu gün,
Dostları Bakımızın
Alnından öpür bu gün.

***Nəqərat:***
Gülür ellərin, gülür çöllərin
Ağ günlərintək, sənin vüqarlı,
Nurlu, baharlı yaşın mübarək!



3

Şən, oynaq melodiyaya, dörd çərəkli xanəyə, cəld tempə malik olan bu mahnını ikisəsli ifa etmək lazımdır.

**SUAL VƏ TAPŞIRIQLAR**

1. Azərbaycan XX əsrdə neçə dəfə müstəqillik əldə edib?
2. Azərbaycan Respublikasının Dövlət himninin müəllifləri kimdir?
3. Azərbaycanın müstəqilliyi ilə əlaqədar şifahi təqdimat edin.

61

## YARADICI TƏTBİQETMƏ

3

Bəstəkar Əfsər Cavanşirovun şair Hikmət Ziyanın sözlərinə yazdığı "Mübarək" mahnısının melodiyası ikisəsli şəklində ifa olunur, onun xarakteri, tempi, ritmi və tonallığı aydınlaşdırılır.

***Tapşırıq:*** "Respublika günü" haqqında qısa şifahi təqdimat edin.

***Mahnının müəllifi haqqında məlumat müxtəlif cür verilə bilər:***
1. İnternet materiallarından istifadə etməklə müəllimin şifahi təqdimatı şəklində.
2. Şagirdlər fərdi şəkildə.

## MÖVZU ÜZRƏ TESTLƏR

Düzgün cavabın qarşısına (+) işarəsi qoyun.

**1. Azərbaycan Respublikasının Dövlət himninin bəstəkarı kimdir?**
a) S.Rüstəmov ☐ b) T.Quliyev ☐ c) Ü.Hacıbəyli ☐

**2. Azərbaycan Respublikasının Dövlət Himninin sözlərini kim yazmışdır?**
a) S.Rüstəm ☐ b) B.Vahabzadə ☐ c) Ə.Cavad ☐

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ



LAYİHƏ





LAYİHƏ



# MUSİQİ REPERTUARI



LAYİHƏ

## QAÇAQ NƏBİ

*Azərbaycan xalq mahnısı*






LAYİHƏ

## QIZIL PAYIZ

*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*




## ANAM AZƏRBAYCANIM

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Adil Babayevindir.*




LAYİHƏ


1.
şəm ül - fə - tin şi - rin - dir
qəm
nə - fə - sin i - lıq.
2.
ə - gər a - ra - mı - za
düş - sə ay - rı - lıq.
A - nam meh - ri - ba - nım
Son - suz mə - həb - bə - tim
A - zər- bay - ca - nım
sö- züm das - ta - nım
Düş - mə - rəm bir an - da
ya - ra - nıb ə - bə - di
3
sən - dən ay - rı - mən.
mə - həb - bə - tim -
1.
2.
dən.



LAYİHƏ

## QIZLARIN XORU

*Musiqisi və sözləri Üzeyir Hacıbəylinindir.*




LAYİHƏ

## SUMQAYIT

*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Nəsib Cəfəroğlunundur.*




## GƏNCLİK MAHNISI

*Musiqisi Qara Qarayevin,*
*sözləri Yevgeni Dolmatovskinindir.*




LAYİHƏ

## ÇAL-OYNA

*(Azərbaycan xalq mahnı-rəqsi)*




## LAYLA

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Nəbi Xəzrinindir.*




LAYİHƏ




## AZƏRBAYCANA GƏLSİN

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Süleyman Rüstəmindir.*




LAYİHƏ

## DOĞMA DİYAR

*Musiqisi Ramiz Mirişlinin,*
*sözləri Məmməd Arazındır.*






LAYİHƏ

## LALƏLƏR

*Musiqisi Telman Hacıyevin,*
*sözləri Aslan Aslanovundur.*






LAYİHƏ

## ƏSGƏR QARDAŞLAR

*Musiqisi Nailə Mirməmmədlinin,*
*sözləri Zəminə Xınalınındır.*




LAYİHƏ

## ŞİRİN DİL

*Musiqisi Emin Sabitoğlunun,*
*sözləri Kərkük bayatılarıdır.*




LAYİHƏ

## BAKI MAHNISI

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Ənvər Əlibəylinindir.*




LAYİHƏ

## GÖRÜŞ FİLMİNDƏN VALS

*Musiqisi Tofiq Quliyevindir*






LAYİHƏ

## AZƏRBAYCAN

*Musiqisi Emin Sabitoğlunun,*
*sözləri Bəxtiyar Vahabzadənindir.*




## "SEVİL" OPERASINDAN "ATAKİŞİNİN KUPLETLƏRİ"

*Musiqisi Fikrət Əmirovundur*






LAYİHƏ

## ODLAR ÖLKƏSİ

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Tofiq Mütəllibovundur.*




## VƏTƏN ƏMANƏTİ

*Musiqisi və sözləri Şahin Musaoğlunundur.*




LAYİHƏ


-cək a-zad-lı - ğa yet-mək ü - çün. Haqq yo-lun-
-dan dön-mə-yə - cək a-zad-lı - ğa yet-mək ü -
Nəqərat
f
-çün. Əs- gər! Və-tən ə - ma-nə- ti, yurd ə-ma-nə - ti!
Əs - gər! O-caq ə - ma - nə- ti, od ə-ma - nə - ti!

LAYİHƏ

## VƏTƏN YAXŞIDIR (*Xudayar təsnifi*)

*Musiqisi Əlibaba Məmmədovun,*
*sözləri Əliağa Vahidindir.*






LAYİHƏ

## SEVİNC MAHNISI

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Zeynal Cabbarzadənindir.*




LAYİHƏ


min zə - fər hər nə - fər, yur - du - muz - da. A - bad o - lur
el - o - ba, kənd, şə - hər Yur - du - muz - da, Yur - dum -
- da, Yur - dum - da. A - ça - a - ça



LAYİHƏ

## MÜBARƏK

*Musiqisi Əfsər Cavanşirovun,*
*sözləri Hikmət Ziyanındır.*






LAYİHƏ

# SİNİF VƏ MƏKTƏB KONSERTLƏRİNDƏ İSTİFADƏ ETMƏK ÜÇÜN ƏLAVƏ REPERTUAR

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

*(Uşaq xoru üçün tərtib edəni — Rəşid Şəfəq)*






LAYİHƏ




Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ

## NOVRUZ BAYRAMI

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Sabir Mustafanındır.*

**Oynaq, şən**




I

Səmənini gətirin
Miz üstünə qoyun, hey!
Kos-kosanı başlayaq,
Gözəldir bu oyun, hey!

***Nəqərat:***
Yaz coşdurur adamı,
Gəlir Novruz bayramı!

II

Bir nimçəyə düzülsün
Yeddi löyün şirniyyat:
Qoğal, qovut, paxlava,
İydə, badam, qoz, nabat.

III

Tonqal çataq həyətdə,
Könül açsın məşəllər.
Öz bəxtini sınasın
Türfə, qönçə gözəllər.



LAYİHƏ

## MƏKTƏBLİNİN YÜRÜŞ MAHNISI

*Musiqisi Cahangir Cahangirovun,*
*sözləri Ənvər Əlibəylinindir.*




I

Yollarda açdıq biz səhəri.
Min kəndi gəzdik, min şəhəri.
Sancdıq dağlara şanlı zəfər
bayrağı,
Hər yerdən gözəldir bizim Vətən
torpağı.

***Nəqərat:***

Səfər vaxtı geniş düzlər, göy
təpələr,
Coşqun dəniz keçdik.
Keçdi şən dəstəmiz,
Yorulmadıq əsla biz.
Yorulmadı qolumuz,
İrəlidir yolumuz.

LAYİHƏ

## QARABAĞ

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Ələmdar Quluzadənindir.*




I

Çayım səndə, dağım səndə,
Yağış olum yağım səndə.
Göy üzündə şimşəyimsən,
Yer üzündə ürəyimsən,
Gərəyimsən, kürəyimsən,
Ay Qarabağ, bağım səndə.

***Nəqərat:***
Mən yanan odlara
Yanma, Qarabağ!
Sınanır Qarabağ,
Sınma, Qarabağ!

LAYİHƏ

## BAKI HAQQINDA MAHNI

*Musiqisi Cavanşir Quliyevin,*
*sözləri Feyruz Məmmədovundur.*




I
Nə xoşbəxtəm, doğulmuşam
Mən Bakının qucağında.

***Nəqərat:***
Azad quştək boy atmışam
Şən Bakının qucağında.

II
Azərbaycan Vətənimdir,
Doğma Bakı şan-şöhrətim.
Bu torpaqdan güc almışdır
Mənim dünya məhəbbətim.

III
Ulduzların gözlərilə
Gülümsəyir şəhər mənə.
Öz mehriban anam kimi,
Layla çalır Xəzər mənə.

IV
Vüqarımdır Qız qalası,
Bərkimişəm küləklərdə.
Arzum budur bu nəğməmlə
Yuva qurum ürəklərdə.

LAYİHƏ

## ŞƏNLİK MAHNISI

*Musiqisi Musa Mirzəyevin,*
*sözləri Hikmət Ziyanındır.*




**I**

Gəlin, gəlin, uşaqlar,
Şənlik edək biz yenə.
Şirin nəğmə oxuyaq
Bu sevimli Vətənə.

***Nəqərat:***
Görün necə bəxtiyar,
Gözəl günlərimiz var.

**II**

Qarmon səsi çağırır
Bu gün bizi şənliyə.
Təzə mahnı oxuyaq,
Olsun sizə hədiyyə.

**III**

Bu gün əziz bayramdır,
Uşaqların bayramı.
Bu gün əziz bayramdır,
Qoy şənlik etsin hamı.

**IV**

Süfrəmizdə qoy olsun
Təbiətin neməti.
Min illərlə yaşasın
Azərbaycan milləti!

LAYİHƏ

## MÜƏLLİM

*Musiqisi Şəfiqə Axundovanın,*
*sözləri Hüseyn Abbaszadənindir.*




I

Əldə qələm tutmağı
Bizə sən öyrətmisən.
Möhkəm addım atmağı
Bizə sən öyrətmisən.

*Nəqərat:*
Heç zaman unutmarıq
Böyük əməyini biz.
Ey mehriban dostumuz,
Əziz müəllimimiz.

II

Gəlib doğma məktəbə
Biz səndən dərs alırıq.
Alışırıq zəhmətə,
Boy atıb, ucalırıq.

LAYİHƏ

## ƏZİZ SİNİF RƏHBƏRİ

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Hüseyn Abbaszadənindir.*




I

Ey mehriban müəllim,
Əziz sinif rəhbəri,
Sevirsən öz balantək
Sən bütün şagirdləri.

***Nəqərat:***
Məsləhətin qiymətli,
Əziz sinif rəhbəri.
Xoş rəftarlı, hörmətli,
Əziz sinif rəhbəri.

II

Hər sözündə məna var,
Söhbətlərində işıq.
Xoş rəftarlı, hörmətli,
Əziz sinif rəhbəri.

III

Biz dərsdən “5” alanda
Gözün fərəhlə dolur.
Tənbəl şagird görəndə
Ürəyin məyus olur.

LAYİHƏ

## BİZ VƏTƏN ƏSGƏRİYİK

*Musiqisi Elnarə Dadaşovanın,*
*sözləri Tofiq Mütəllibovundur.*




| I | II |
|---|---|
| Balaca əsgərik biz, | Geydik əsgər paltarı, |
| Hünər göstəririk biz! | Geydik əsgər çəkməsi. |
| Vətənin keşiyində | Sülhdür bizim nəğməmiz, |
| Ayıq dayanırıq biz! | Hər sözü, hər kəlməsi! |

*Nəqərat:*
E hey, çölləri oyat,
Öyrən hər bir oyunu!
Qoru, qoru Vətəninin
Gül-çiçəkli qoynunu!

III
Sahibiyik bu yurdun,
Bu dənizin, bu çayın,
Bu Günəşin, bu Ayın,
Ellər bizə arxayın!

LAYİHƏ

## SÜLH GÖYƏRÇİNİYİK BİZ!

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Zahid Xəlilindir.*




**Xor:** Göyərçinik biz,
Sülh quşuyuq biz.
**Solo:** Gülsün gül kimi,
**Xor:** Gül kimi
**Solo:** Üzü ellərin,
**Xor:** Ellərin.
Gülsün hər oğlu,
Qızı ellərin!

**Xor:** Göyərçinik biz,
Sülh quşuyuq biz.
**Solo:** Hərbin dadını,
**Xor:** Dadını
**Solo:** Ellər görməsin,
**Xor:** Görməsin,
Hərbin odunu
Çöllər görməsin.



LAYİHƏ

## ƏDƏBİYYAT SİYAHISI


1. **F.Bədəlbəyli, O.Rəcəbov, G.Abdullazadə, F.Hidayətova.** Azərbaycan bəstəkarlarının uşaq mahnıları antologiyası. I—VI cildlər. Bakı, “Mütərcim”, 2008-2013.
2. **F.Bədəlbəyli, O.Rəcəbov, Ş.Həsənova, G.Abdullazadə.** Azərbaycan bəstəkarlarının həyat və yaradıcılığı. I cild. Bakı, “Mütərcim”, 2012.
3. **F.Əliyeva, N.Kazımov, T.Babayeva.** VII sinif “Musiqi” dərsliyi. Bakı, “Kövsər”, 2007.
4. **F.Bədəlbəyli, O.Rəcəbov, G.Abdullazadə.** “Azərbaycan xalq rəqsləri”. Bakı, “Mütərcim”, 2011.
5. **O.Rəcəbov, F.Hidayətova.** Ümumtəhsil məktəblərində musiqi tədrisi metodikası. Bakı, “Mütərcim”, 2013.
6. **O.Rəcəbov.** I—VIII siniflər üçün “Musiqi” proqramları. Bakı, “Kövsər” nəşriyyatı, 2006.
7. **O.Rəcəbov, S.Rzayeva.** V—IX siniflərdə “Musiqi kurikulumu”. Bakı, “Mütərcim”, 2013.
8. **O.Rəcəbov.** “Azərbaycan xalq musiqisi və müəllim hazırlığı”. Bakı, “Mütərcim”, 2012.
9. Ümumtəhsil məktəblərinin fənn kurikulumları. Bakı, “Şərq-Qərb”, 2012.
10. Под редакцией **Д.В. Кабалевского.** Программа по “Музыке”. Москва. “Просвещение”, 1988 г.


LAYİHƏ

**BURAXILIŞ MƏLUMATI**

**MUSİQİ 7**

*Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün*
*Musiqi fənni üzrə dərsliyin*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Oqtay Məmmədağa oğlu Rəcəbov**<br>**Nazim Kazım oğlu Kazımov**<br>**Aytən Rauf qızı Babayeva** |
| Redaktor | **Sevinc Nuruqızı** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizaynerlər | **Səadət Quluzadə, Aqil Əmrahov** |
| Üz qabığı | **Təhmasib Mehdiyev** |
| Korrektor | **Ceyran Abbasova** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
2018-114

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 6,2. Fiziki çap vərəqi 6,0. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 96. Ofset kağızı. Məktəb qarnituru. Ofset çapı.
Tiraj 6245. Pulsuz. Bakı–2018.

**«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC**
Bakı, AZ 1052, F.Xoyski küç., 149

LAYİHƏ

**PULSUZ**

LAYİHƏ